Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

28
YANVAR
2020-ci il

№ 14 (4145)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# BELƏ TƏHSİL ŞÖBƏ MÜDİRLƏRİ HƏBS EDİLMƏSƏ, TƏHSİL BUXOVLARDAN TAM XILAS OLA BİLMƏZ

■ səh. 14 ■

Dünyanın harasında olsa fəlakətə düşmüş Azərbaycan vətəndaşına dövlətin əli yetir - sistemli dövlətçilik fəaliyyətinin daha bir əlaməti...
■ səh. 3 ■

Paşinyan vasitəçilərin 26 ildə ərsəyə gətirdiyi Qarabağ həll planından rəsmən imtina etdi - vasitəçilərin yolverilməz susqunluğu ifşa olunur...
■ səh. 7 ■

Respublika "Xatirə kitabı" İsmayıllının Gəraybəyli kəndinin Qarabağda itkin düşmüş gənci barədə hazırladığı sənədli povesti təqdim etdi...
■ səh. 4-5 ■

Azərbaycan üzərindən Şimal-Cənub xətti ilə axan milyardlar 72-yə çatdı...
■ səh. 12 ■

Paşinyanın erməni cəmiyyəti ilə "ən müasir silahlar" blefi - "sən bu silahları hansı pullarla almısan"...
■ səh. 10 ■

Seçkilərə yenidən qatılmış hazırkı deputatların az sayda bəzilərinə böyük seçici dəstəyinin sirləri...
■ səh. 3 ■

Prezident Sarkisyan Yerusəlimdə İsrail dövlət elitasına yalanlar qalmadı uydurdu...
■ səh. 11 ■

Ermənistan yenidən tam prezidentli respublika quruluşuna qayıdır - Paşinyan Konstitusiya komissiyasını yaratdı
■ səh. 9 ■

DİN və Baş Prokurorluq Zamin Salayevlə bağlı xəbərlərə tam aydınlıq gətirdi
■ səh. 13 ■



■ səh. 8 ■

## Ermənistanda blokada vəziyyətinə ağlasığmaz yeni izah - «Azərbaycan bizi milyardların hesabına blokadaya salıb», siyasi-diplomatik uğursuzluq ört-basdır edilir...



Gürcüstanın Azərbaycandan «qaz asılılığı» ətrafında erməni intriqaları başladı - hədəf seçki ərəfəsində ictimai rəyi Rusiya qazına tərəf döndərməkdir...
■ səh. 9 ■



Paşinyan həbs etmək istədiyi Konstitusiya Məhkəməsinin sədrindən rüşvət aldığını etiraf etmək zorunda qaldı...
■ səh. 10 ■

İmişli Şəkər Zavodu çökür, istehsalat uğursuzluğunu Rusiyadan idxalın artım amili ilə bağlayır...
■ səh. 15 ■

■ səh. 6 ■
Saatlının Hacı Qasımlı, Naharlı, Məzrəli, Qaracalar və Gomuşçu kəndləri də "Əhliman Əmiraslanovu seçəcəyik" dedi...



■ səh. 2 ■
Bu da İsrail dövlətinin "ədaləti"... Prezident Rivlin erməni prezidentinin yalanlarına susdu...



■ səh. 7 ■
Deputatlığa namizədlər seçki platformalarında Qarabağ məsələsinə necə yanaşır və ya yanaşırlarmı...



■ səh. 14 ■
Kiçik və orta biznes subyektləri üçün məhsullarını Azərbaycan marketlərinə çıxarmaq problemi kəskinləşir...



■ səh. 14 ■
Çində yayılan ölümcül virus Azərbaycanla iqtisadi əlaqələrə necə təsir edə bilər...



## Nazir Ceyhun Bayramov xaricdə fəlakət bölgələrindəki tələbələrimizdən, korrupsiyaya görə həbs olunan təhsil işçilərindən danışdı

**"Hazırda Çində ümumilikdə 500-ə yaxın azərbaycanlı tələbə təhsil alır. Çində dövlət xəttilə təhsil alan tələblərin sayı 62-dir".**



Baki-xeber.com xəbər verir ki, bu barədə Təhsil naziri Ceyhun Bayramov mətbuat konfransında bildirib. Onun sözlərinə görə, koronavirusun yayıldığı bölgələrdə isə 7 tələbəmiz var.

"Təhsil Nazirliyi Xarici İşlər Nazirliyi və Çindəki Azərbaycan Səfirliyi ilə daim əlaqə saxlayır. Bizdə olan məlumata görə, 50-dən artıq ölkə vətəndaşlarını çıxarmaq üçün Çinə müraciət edib. Xarici İşlər Nazirliyindən əldə etdiyimiz məlumata əsasən, bu gün Çin Xarici İşlər Nazirliyində iclas olacaq. Ondan sonra Çin tərəfinin hansı addımları atmağı planlaşdırması ilə bağlı açıqlama olmalıdır. Bu açıqlama olduqdan sonra növbəti addımlar atılacaq. Bu məsələni diqqətdə saxlayırıq", - deyə nazir vurğulayıb. Türkiyədə baş verən zəlzələ ilə əlaqədar 102 azərbaycanlı tələbə bu ölkədən avtobuslarla Naxçıvan Muxtar Respublikasına, oradan da xüsusi aviareyslə Azərbaycana gətirilib. Bu barədə də Təhsil naziri Ceyhun Bayramov keçirdiyi mətbuat konfransında məlumat verib.

Türkiyədə baş verən zəlzələdən sonra təxliyə edilən tələbələrimizlə bağlı məsələnin dövlət başçısının xüsusi nəzarətində olduğunu deyən C.Bayramov bildirib ki, hazırda geri qaytarılan tələbələr tətildədir:"Sonrakı mərhələdə tələbələrin dərslərində hansısa fasilələrin yaranacağı ilə bağlı suallara müəyyən vaxtdan sonra dəqiq cavab veriləcək. Eyni zamanda, yenə də universitetlər tərəfindən təqdim olunan imkanlar, orada olan şərait, tələbələrin istəyi və seçimi ilə bağlı bir sıra məqamlar nəzərə alınmaqla növbəti addımlar atılacaq". Vahid məktəbli formasının tətbiqi məsələsinə toxunan nazir deyib ki, əsas məsələ düzgün çərçivənin, rahat, keyfiyyətli, standartlara uyğun olan geyim formasının müəyyən edilməsidir. Onun sözlərinə görə, hazırda ümumtəhsil müəssisələrinin nümunəvi nizamnaməsində qeyd edilir ki, məktəb daxilində məktəbli geyimləri vahid olmalıdır. Ancaq bütün ölkə üzrə məktəbli formalarının vahid olması ilə bağlı hər hansı standart, norma mövcud deyil: "Biz sırf qanunvericilik baxımdan yanaşsaq, belə çıxır ki, hər məktəb özü öz məktəbi daxilində geyim müəyyənləşdirə bilər. Ancaq hər bir məktəb özü üçün məktəbli forması seçərkən müəyyən gigiyena normalarına əməl edilməli, standartlar gözlənilməlidir. Reallıqda buna o qədər də ciddi əməl edilmir. Ona görə "Təhsil haqqında" qanuna 2018-ci ildə edilən dəyişikliyə əsasən, dövlət məktəbli formalarının nümunələrini təsdiq edəcək və məktəblər də bu nümunələr sırasından seçim edə bilərlər. Təsdiq edilmiş dövlət nümunələri 3-5 növ ola bilər. Orada bütün tələblər qeyd edilir. Bunlar da sözsüz ki, daha çox istehsalçılar üçündür. Onlar normalara ciddi əməl etməlidirlər". C.Bayramov əlavə edib ki, hər bir məktəb valideynlərlə birlikdə uyğun geyim formasını müəyyən edərək seçə bilər.

Nazirin sözlərinə görə, məktəblər üçün təsdiq edilmiş geyim formaları arasından hansısa birinin istifadəsi ilə bağlı heç bir məhdudiyyət qoyulmayacaq: "Hesab edirik ki, həmin məktəbli formaları təsdiqlənmiş dövlət nümunələrindən biri ola bilər".

Qış aylarında qızlar üçün şalvar geyimindən istifadənin mümkün olub-olmadığına gəldikdə, C.Bayramov deyib ki, hazırda aparılan ictimai müzakirənin də məqsədi ilkin hazırlanmış forma layihələrinə rəyin verilməsidir: "Mən tam əminliklə deyə bilərəm ki, bizə daxil olan rəylər əsasında həmin layihələrdə dəyişiklik olacaq və yeni təkmilləşmiş variant müzakirəyə çıxarılacaq". Nazir onu da deyib ki, qanunvericiliyə əsasən, məktəbli forması və yaxud məktəb ləvazimatlarının qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi nəzərdə tutulmayıb. Onlar tələb-təklif əsasında təyin edilir. C.Bayramov bildirib ki, qiymətlərin müəyyən edilməsi, keyfiyyət və forma ilə əlaqədar olaraq, istehsalçılardan asılıdır:"Məktəbli formalarının qiymətinin yüksək olmamağı tövsiyə edilir. Bir sıra istehsalçılar buna riayət edir. Bizdə olan məlumata görə, istehsalçıların özü də qiymətlərin aşağı olmasına maraqlıdır. Çünki qiymət münasib olarsa, formalar da satılar". Daha sonra nazir deyib ki, 2019-cu ildə korrupsiya faktlarına görə 6 rayon təhsil şöbəsi rəhbərinin əmək müqaviləsinə xitam verilib, 10 rayon təhsil şöbəsinin əməkdaşına, 3 ərazi maliyyə-hesablaşma mərkəzinin rəhbərinə inzibati tədbirlər təqdim edilib. Bir sıra təhsil müəssisələrində ciddi faktların olması nəticəsində 7 halda materiallar hüquq-mühafizə orqanlarına hüquqi qiymət verilməsi üçün təqdim edilib. Onun sözlərinə əsasən, ötən il 10 məktəb rəhbəri, direktor və direktor müavininin müqaviləsinə xitam verilib və onlar işdən kənarlaşdırılıb. C.Bayramov əlavə edib ki, müqavilələrinin müddəti başa çatan 80 nəfər məktəb rəhbəri davamlı olaraq aşağı nəticələr göstərdiyi və məktəbi idarəetmədə bir sıra pozuntulara yol verdikləri üçün onların növbəti dəfə müqavilələrinin uzadılmaması barədə qərar qəbul edilib: "Əfsuslar olsun ki, bu istiqamətdə hələ də pozuntularla rastlaşırıq. 2020-ci ildə də belə hallar olacaqsa, Təhsil Nazirliyi tərəfindən buna sərt formada ciddi reaksiya veriləcək".

Nazir korrupsiya ilə bağlı vətəndaş müraciətlərinə ciddi reaksiya verildiyini də deyib.

***Baki-xeber.com***

# Məmmədyarovun yanvarın 29-30-da Cenevrədə həmsədrlər və Ermənistan XİN başçısı ilə görüşünü də gözləyək...

**Ermənistan kütləvi informasiya vasitələrində Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın Xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında keçiriləcək növbəti görüşün yeri və vaxtı ilə bağlı məlumat yayılıb.**



Məlumatla bağlı baki-xeber.com-un sorğusuna cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyindən deyilib ki, nazir Elmar Məmmədyarov bir müddət öncə yanvarın sonunda Ermənistan xarici işlər naziri ilə görüşün keçiriləcəyini bildirmişdi.

Belə ki, yanvarın 29-30 da Cenevrədə nazir Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri və erməni həmkarı ilə görüşü keçiriləcək.

# Bu da İsrail dövlətinin "ədaləti"... Prezident Rivlin erməni prezidentinin yalanlarına susdu...

## *5-ci "Holokost" konfransında xüsusi iştirak Azərbaycanın haqqı idi, Ermənistanın yox - Aydın Quliyev yazır*

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru, politoloq Aydın Quliyev özünün facebook səhifəsində bu günlərdə İsrail dövlətinin Qüdsdə keçirdiyi V Beynəlxalq Holokost konfransında Ermənistan prezidentinin iştirakına və onun ənənəvi yalan üzərində qurulan çıxışına şərh verib və İsrail dövlətinin bu yalanlara susqunluğunu qınayıb"**

A.Quliyev yazır:

Həttaəntəmkinlisiyasətçilərdəhiddətlənməyəbilməzİsraildövlətininbaşçılarının buəməlinə. Yerusəlimdə V Beynəlxalq Holikost konfransına Ermənistanın prezidenti Sarqsyanı da dəvət ediblər, üstəlik prezident Rivlinlə şəxsən görüşdürüblər də ... Sarqsyan da fürsətdən istifadə edərək və bütün yəhudi elitasını anlamaz yerinə qoyaraq, o ki var, yalan nağıllar uydurub... Bütün bu yalanlara isə İsrail prezidenti Rivlin susub, bir kəlmə ilə də etiraz etməyib ki, bu qədər yalanları bizi kim yerinə qoyaraq danışırsan?!



Sarqsyan deyib ki, Ermənistan faşizm üzərində qələbəyə böyük töhfələr verib. Rivlin isə ona cavab olaraq deməyib ki, Njde kimi "faşist qəhrəmana"heykəl qoyulmasına dözən xalq antifaşizm hərəkatlna hansı töhfələri verə bilərdi?! Sarqsyan deyib ki, Hitlerlə müharibəyə Ermənistandan 600 min adam gedib və onun 300 mini həlak olub. Rivlinin müşavirlərinin başı "harda və nəyə"qarışıb ki, Sarqsyana o vaxt Ermənistanda bu qədər əsgər göndərməyə imkan verən sayda əhalinin olmadığını irad tutsun?! İkinci Dünya müharibəsinə məhz Azərbaycanın 600 min əskər göndərmək imkanı var idi və göndərdi də... Hamı bilir ki, Azərbaycanın əhalisi həmişə Ermənistan əhalisindən azı 3 dəfə çox olub. Nəzərə alsaq ki, üstəlik müharibə vaxtı Ermənistan əhalisinin mühüm hissəsi -azı 550-600 mini etnik azərbaycanlılar idi, o halda Ermənistan müharibəyə 600 min adam yox, heç 600 min qoyun da göndərə bilməzdi.

Ermənilərin bu gün qəhrəman etdiyi Qaregin Njde, Drastamat Xanoyan kimi faşist canilərin təkcə Bolqarıstanda neçə yəhudinin qətlinə səbəb olduqlarını Sarqsyandan soruşmaq lazım idi,susmaq yox, cənab Rivlin... Sarqsyana "əlləri neçə yəhudinin qanına batmış faşistə qoyduğunuz heykəli sökməkdən imtina edəndən sonra İsrailə nə üzlə gəlmisən" kimi ədalətli sualı verməK cənab Rivlinin yadına düşmədi, nə Sarqsyan konfransda çıxış edəndə,nə də Rivlinlə şəxsən görüşəndə...

Yəhudilər üçün böyük önəmi olan faşizm üzərində qələbədə xüsusi töhfə payı məhz Azərbaycana məxsusdur,Ermənistana yox...Bu töhfəni göndərdiyimiz real 600 min, itirdiyimiz 300 min əsgərlə, verdiyimiz milyon tonlarla neftlə və s. ilə qazandıq. Ən son töhfəmiz isə Hitlerə qulluq etmiş Njde kimi faşist canilərin cinayətlərinin Azərbaycan Prezidenti tərəfindən ifşa edilməsi oldu.

Bütün bunlardan sonra gəldiyimiz real qənaət: İsraildə V Holokost konfransında ən mötəbər məruzələrdən biri Azərbaycan Prezidentinə verilməli idi. Əgər İlham Əliyev o konfransda olsaydı,Sarqsyan bu yalanları cənab Rivlinin üzünə qarşı deyə bilməzdi, eşidə biləcəyi tutarlı cavablardan çəkinərdi, necə ki Aşqabadda Paşinyan məhz belə "vurulmuşdu"...

Dəyərli yəhudi dostlarım, xüsusilə də politoloq cənab Arie Qut məndən inciməsin- ortada hətta Holokost qurbanlarının xatirəsinə ikili standart yanaşma əlamətləri görürəm. Sarqsyan bütün yəhudi dünyasını təhqir etdi, öz cavabsız yalanları ilə...

**Məlum olduğu kimi, yanvarın 24-də, yerli vaxtla saat 20:55-də Türkiyənin Elazığ vilayətinin Sivricə rayonunda 6,8 bal gücündə zəlzələ baş verib və zəlzələ nəticəsində yaralananlar və həyatını itirənlər olub. Təbii fəlakət nəticəsində 1600-dən çox insanın xəsarət aldığı bildirilir.**

# Dünyanın harasında olsa fəlakətə düşmüş Azərbaycan vətəndaşına dövlətin əli yetir - sistemli dövlətçilik fəaliyyətinin daha bir əlaməti...

***Azər Həsrət:** "Zəlzələ baş verən Elazığdan Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan vətəndaşlarının operativ şəkildə təxliyyə edilməsi dövlətimizin öz vətəndaşlarına bəslədiyi həssas münasibətin təzahürüdür"*



Qeyd edək ki, Türkiyənin Fəlakət və Fövqəladə Vəziyyətin İdarə Edilməsi Orqanı (AFAD) tərəfindən verilən açıqlamaya görə, zəlzələ nəticəsində 76 bina dağılıb, 642 binaya ciddi, 425 binaya isə az və ya orta dərəcədə ziyan dəyib. İlk dağıdıcı zəlzələdən sonra bölgədə 19-nun gücü maksimum 4 bal olan 533 yeraltı təkan qeydə alınıb.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, müvafiq qurumlar tərəfindən Türkiyədə baş vermiş zəlzələ zonasında təhsil alan azərbaycanlı tələbələrin təxliyyə olunması istiqamətində tədbirlər həyata keçirilib və onlar zəlzələ zonasından təxliyyə edilərək avtobusla Naxçıvana, oradan isə təyyarə ilə Bakıya yola salınıblar. Elazığ və Malatya şəhərlərində təhsil alan azərbaycanlı tələbələrin təbii fəlakət bölgəsindən çıxarılması həqiqətən də təqdirəlayiqdir. Bu, Azərbaycan dövlətinin həyata keçirdiyi zəruri tədbirlər nəticəsində vətəndaşlarımızın həyatının xilas edilməsi deməkdir. Heç şübhəsiz ki, Türkiyədə zəlzələ zonasından azərbaycanlıların təxliyyə olunması və Naxçıvan vasitəsilə Bakıya gətirilməsi Azərbaycan dövlətinin öz vətəndaşlarına həssas yanaşmasının təzahürüdür. Dünyanın hansı ölkəsində yaşamalarından, işləmələrindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı dövlətimizin diqqət və qayğısı altındadır.

Tanınmış siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dövləti təbii fəlakətlər zamanı hər zaman öz vətəndaşlarına həssas münasibət göstərib və dünyanın istənilən yerində təbii fəlakət baş verərsə, aidiyyəti təşkilatlar həmin bölgədə Azərbaycan vətəndaşlarının olub-olmadığını araşdıraraq tədbirlər görürlər. "Biz Azərbaycan Prezidentinin həssaslığını ilk dəfədir müşahidə etmirik, o, belə hallarda dəfələrlə həssaslıq göstərib. O belə vaxtlarda ən sadə Azərbaycan vətəndaşını düşünüb və buna görə davranıb. Əlbəttə ki, Elazığda baş verən təbii fəlakət, zəlzələ bizi çox dərindən üzdü. Azərbaycan Prezidenti bu zəlzələni, sadəcə, Türkiyə ərazisində baş verən zəlzələ kimi deyil, eyni zamanda, Azərbaycan xalqını, Azərbaycan Prezidentini üzən bir təbii fəlakət kimi qəbul etdi və dərhal da göstəriş verdi. Yəqin fikir verdiniz, Türkiyədə baş verən zəlzələ ilə bağlı dünya ölkələri arasında ən operativ reaksiyanı Azərbaycan verdi. Eyni zamanda, Azərbaycan başqa dövlətlər içində təbii fəlakət bölgəsinə ilk yardımı göndərən dövlət oldu. Yəni Azərbaycan Türkiyədə baş verən hadisələrə həmişə həssas yanaşıb. Bununla yanaşı, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşlarımıza da həssaslıqla yanaşır, onların taleyi ilə maraqlanır. Bu baxımdan, təbii fəlakət, zəlzələ baş verən Elazığdan Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan vətəndaşlarının operativ şəkildə təxliyyə edilməsi dövlətimizin öz vətəndaşlarına bəslədiyi həssas münasibətin təzahürüdür. Həmin tələbələrin dövlət başçısının göstərişi ilə vətənə gətirilərək ailələrinə qovuşdurulması çox müsbət haldır. Bu, ölkə başçısı tərəfindən atılan çox humanist bir addımdır, bu, yalnız bir Prezidentlik vəzifəsinin icrası deyil, həm də insanlıq vəzifəsinin yüksək səviyyədə yerinə yetirilməsidir. Azərbaycan Prezidenti İlham Əliyev də məhz bu cür keyfiyyətlərinə görə öz liderliyini, qoruyur, illər sonra da qoruyacaq. Dövlətimizin başında belə bir şəxsiyyətin durmasına bu dəfə ikiqat sevindik ki, o, "bu, sadəcə, bir zəlzələ hadisəsidir" deyib keçmədi və hər bir azərbaycanlı üçün, bir növ, Azərbaycan dövlətini səfərbər etdi, onları çox qısa müddətdə o ərazidən uzaqlaşdırıb, öz ailələrinə qovuşdurdu".

*"Biz Azərbaycan Prezidentinin həssaslığını ilk dəfədir müşahidə etmirik..."*

Təbii fəlakət zamanı xəsarət almayan, sağlam şəkildə ailəsinə qovuşan insanların ailələrində toy-bayram olduğunu deyən A.Həsrət hesab edir ki, bu sevinci də onlara Azərbaycan Prezidenti yaşadıb.

***İradə SARIYEVA***

**Etiraf edək ki, bəzi seçki dairələrində parlamentə təkrar seçilmək niyyətini ortaya qoyan hazırkı deputatların heç də hamısının seçki kampaniyası uğurla keçmir. Sosial şəbəkələrdə yayılan videolardan görünür ki, həmin namizədlərə daha çox sual verilir, onlardan, bir növ, son 5 illik fəaliyyətin nəticələri soruşulur.**

# Seçkilərə yenidən qatılmış hazırkı deputatların az sayda bəzilərinə böyük seçici dəstəyinin sirləri...

***İsmayıl Ağayev:** "Onlar bunu seçiciyə olan diqqətləri ilə qazana biliblər"*




Hətta elələri var ki, onları az qala keçirdikləri görüşlərdən qovmaq istəyirlər.

Ancaq etiraf edək ki, belə vəziyyəti heç də namizədliyini irəli sürən bütün millət vəkillərinə şamil etmək olmaz. Məsələn, müşahidələrimiz göstərir ki, Yeni Azərbaycan Partiyasının 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizədi akademik Əhliman Əmiraslanovun təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Keçirdiyi görüşlərdə əhali ona böyük etimad göstərir. Belə uğurlu seçki kampaniyası apara bilən az sayda millət vəkili var.

Maraqlıdır, seçkilərə yenidən qatılmış az sayda hazırkı deputatların böyük seçici dəstəyi qazana bilməsinin sirləri nədədir?

Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayev qəzetimizə bildirdi ki, bu məsələni konkret şəxslər üzərində fokuslamaq istəmir: "Bəli, seçkilərə qatılan müxtəlif kateqoriyalı adamlar var. Mənim özüm bu dəfə namizədliyimi irəli sürməsəm də, seçki prosesini yaxından izləyirəm. Bəzi dostlarımızın təbliğat-təşviqat prosesində yaxından iştirak edirəm. Namizədliyini irəli sürən hazırkı deputatların əksəriyyətinə münasibətimin heç də yaxşı olmamasının bir səbəbi var: seçiləndən sonra seçicilərlə vidalaşıb, bir də 5 ildən sonra onları yada salmaq kimi hərəkətləri. Çox təəssüflə qeyd etməliyik ki, belə vəziyyətin olduğunu hətta Prezident də dedi. Bildirdi ki, bəzi deputatlar seçiləndən sonra öz seçiciləri ilə görüşmürlər. Mən başa düşürəm, bəzən seçicilər də deputatlardan çox tələblər edirlər. Həmin işlərin çoxu deputatların səlahiyyəti çərçivəsində olmur. Ancaq bu o demək deyil ki, seçicidən qaçmaq lazımdır. Heç olmasa, ildə bir neçə dəfə seçicilərlə görüşmək, seçicilərin problemləri ilə maraqlanmaq millət vəkillərinin borcudur. Bunu etməyənlərə xalq layiq olduqları qiyməti verir. Edənlər isə mehribanlıqla qarşılanır. Doğrudan da seçicilərin rəğbətini qazanmağı bacaran millət vəkillərimiz var. Onlar bunu seçiciyə olan diqqətləri ilə qazana biliblər. Bunun başqa bir düsturu yoxdur.

Xalqın gözü tərəzidir. O bilir ki, kimi rəğbətlə qarşılamaq lazımdır, kimisə kənddən qovmaq. Yaxşı olardı ki, hazırda seçiləcək gələcəyin millət vəkilləri də belə mənzərədən nəticə çıxarsınlar. Millət vəkili olmaq yalnız gedib parlamentin iclaslarında oturub, yaxşı əmək haqqı almaqla bitmir. Bunun üçün etimad göstərmiş adamların səsi olmağı bacarmaq gərəkdir. Belə olmasa, həmin millət vəkilinə heç bir rəğbət və ehtiram olmayacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Respublika "Xatirə kitabı" İsmayıllının Gəraybəyli kəndinin Qarabağda itkin düşmüş gənci barədə hazırladığı sənədli povesti təqdim etdi...

**Yolumuz dağlar qoynunda yerləşən əsrarəngiz İsmayıllı rayonunun ovcunda yerləşən Gəraybəyli kəndinədir. Təxminən 150 evlik bir oba olan Gəraybəylini məşhurlaşdıran, dillərdə dastan edən, onu ziyarət yerinə çevirən isə bu yurdun qorxmaz, cəsur, vətənpərvər övladı, Qarabağ savaşında itkin düşmüş və hələ də əzizləri tərəfindən yolu gözlənilən Xəqani Eyvaz oğlu Əkbərovdur.**



## Baş redaktor Aydın Quliyev Gəraybəyli məktəbinə Xəqani Əkbərovun adının verilməsini təklif etdi

Bizim Gəraybəyliyə səfərimiz təsadüfi deyildi. Xəqani Əkbərovun 51 yaşına təsadüf edən səfərimizdə qəhrəmanın döyüş və keçdiyi həyat yolundan bəhs edən və Mədəniyyət Nazirliyinin Respublika "Xatirə kitabı" redaksiyası ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi olan "Şəhidlər ölməz, Vətən bölünməz" silsiləsindən nəşr edilən, müəllifi tanınmış jurnalist-publisist Nəzirməmməd Zöhrablı olan "Gözlər yoldan yığılarmı..." sənədli povestinin də təqdimat mərasimi keçirildi. Özü də tədbir yeni tikilən və 2019-2020-ci tədris ilində şagirdlərin ixtiyarına verilən Gəraybəyli kənd orta məktəbində baş tutdu.

Məktəbin foyesində X.Əkbərovun xatirəsini əks etdirən fotoşəkillər ağ, qırmızı qərənfillərin əhatəsində sanki onu anıb gələn hər kəsi salamlayırdı. "Gözlər yoldan yığılarmı..." kitabı da qəhrəmanı anıb gələnlər üçün təsəlli dolu bir xatirə idi, kitaba toxunan hər kəs elə bil kitaba deyil, kitablaşan Xəqaniyə toxunurdu, onunla hal-əhval tuturdu...

X.Əkbərovun ad gününə və "Gözlər yoldan yığılarmı..." kitabının İsmayıllı ictimaiyyətinə təqdimat mərasiminə həsr edilən tədbirdə Respublika "Xatirə kitabı" redaksiyasının baş redaktoru, tanınmış ictimai xadim, şairə, "Yada düşdü" jurnalının təsisçisi Nəzakət Məmmədova, "Bakı-Xəbər" qəzetinin baş redaktoru, Azərbaycan Mətbuat Şurası İdarə heyətinin üzvü, tanınmış ictimai-siyasi xadim Aydın Quliyev, "Gözlər yoldan yığılarmı..." nəşrinin redaktoru, tanınmış qələm adamı, yüzlərlə kitabın redaktoru və müəllifi Zülfüqar Şahsevənli, kitabın müəllifi Nəzirməmməd Zöhrablı, X.Əkbərovun dayısı, görkəmli hüquq işçisi, el ağsaqqalı, ziyalı Rəsul Səfərov, qardaşı Knyaz Əkbərov, rayon ziyalısı, tanınmış jurnalist Lətifə Əliyeva, şəhidin komandiri olmuş Qasım Həsənov, rayon hərbi komissarlığının nümayəndəsi, İsmayıllı Peşə Məktəbinin direktoru Zaur Muradov, Əlillər və Veteranlar Şurasının sədri Vidadi Zərbiyev, İsmayıllı Şəhər Bələdiyyəsinin sədri, İcra Hakimiyyətinin nümayəndələri, bütövlükdə isə rayon ictimaiyyəti iştirak edirdi.

### "Mən Xəqanini həyatdan köçmüş hesab etmirəm, inanıram ki..."

Tədbiri giriş nitqi ilə açan "Gözlər yoldan yığılarmı..." kitabının redaktoru Zülfüqar Şahsevənli bildirdi ki, "Xatirə kitabı" redaksiyası Azərbaycan dövlətinin ərazi bütövlüyü, torpaqlarımızın düşməndən müdafiə olunması yolunda şəhid olan, itkin düşən Vətən övladlarının xatirələrinin əbədiləşdirilməsi, onların unudulmaması üçün müxtəlif istiqamətlərdə işlər görür. Redaksiyanın həyata keçirdiyi layihələrin ən mühümlərindən biri isə "Bakı-Xəbər" qəzeti ilə birgə gerçəkləşdirdiyi "Şəhidlər ölməz, Vətən bölünməz" silsiləsindən serial kitabların nəşr edilməsidir. Z.Şahsevənli qeyd etdi ki, N.Zöhrablının qələmə aldığı "Gözlər yoldan yığılarmı..." nəşri bu seriyadan olan sayca 3-cü kitabdır. 2017-ci ildən bu silsilədən olan kitabların nəşr edildiyinə başlandığını deyən Z.Şahsevənli vurğuladı ki, buna qədər də "Xatirə kitabı" redaksiyası tərəfindən saysız iş görülüb. Redaksiyanın uzun və şərəfli yol keçdiyini qeyd edən natiq bildirdi ki, "Xatirə kitabı"nın fəaliyyəti bütün respublikanı əhatə edir və qurum tərəfindən abidəyə çevrilən möhtəşəm kitablar nəşr edilib. "Xalqa, dövlətə təmənnasız, böyük sevgi ilə xidmət göstərən "Xatirə kitabı" redaksiyasının nəşr etdiyi kitablarda respublikanın hər yerindən itkin düşən, şəhid olan vətən övladları haqqında məlumatlar var. Bu nəşrlərdə hətta Birinci Dünya Müharibəsində itkin düşənlərin siyahıları var, kimin harada itkin düşməsi haqqında məlumatlar qeyd olunub. Bu redaksiya çox böyük işlər görüb, Rusiyanın, eləcə də keçmiş SSRİ respublikalarının arxivlərində tədqiqatlar aparıb, II Dünya Müharibəsində itkin düşən, həlak olan qəhrəman Azərbaycan övladları haqqında məlumatları üzə çıxarıb nəşr ediblər. Bu nəşrlərdə II Dünya Müharibəsində həlak olan, itkin düşən azərbaycanlıların harada dəfn edildiyi, harada itkin düşdüyü haqda tam dəqiq məlumat var. Bizim heç ağlımıza da gəlməzdi ki, XX əsrin sonlarında torpaqlarımız mənfur ermənilər tərəfindən işğala məruz qalacaq və torpaqlarımızın müdafiəsi uğrunda yüzlərlə Vətən övladı şəhid olacaq, itkin düşəcək, bunun nəticəsində də "Xatirə kitabı"nın yeni cildləri meydana gələcək. "Şəhidlər ölməz, Vətən bölünməz" silsiləsindən yazılan kitablar nəşr edilməmişdən əvvəl Aydın Quliyevin rəhbərlik etdiyi "Bakı-Xəbər" qəzeti vasitəsilə oxuculara, ictimai rəyə təqdim edilir.









İndiyə qədər üç şəhidimiz haqqında kitab nəşr edilib. Maraqlıdır ki, hər üç kitabın qəhrəmanı nişanlı oğlanlardır, onların yaşları 20-25 arasındadır, həyatdan nakam köçüblər.

*(Ardı 5-ci səh.)*

*(Əvvəli 4-cü səh.)*

Mən Xəqanini həyatdan köçmüş hesab etmirəm, inanıram ki, bu gün 51 yaşını qeyd etdiyimiz Xəqani nə vaxtsa qayıdacaq. Onun haqqında Nəzirməmməd Zöhrablının yazdığı kitabın redaktoru olmuşam, o, şəhidin anasının oğlu ilə bağlı keçirdiyi duyğuları çox təsirli şəkildə qələmə alıb. Bu səhnəni oxuyanda öz anam və digər gözüyaşlı analar gözlərim qarşısına gəldi. Anaların çoxunun gözü yoldadır. Bu gün Azərbaycanın böyüyən oğullara çox böyük ehtiyacı var. Çünki Vətən oğulların çiynindədir".

X.Əkbərovun qəhrəmanlıq dolu döyüş yolundan, yarıda qırılan yaralı həyatından söhbət açan Z.Şahsevənli vurğuladı ki, ölkəmizin çox qəhrəman, cəsur övladı var, onlardan biri də şəhid olduğu, yaxud itkin düşdüyü qaranlıq qalan X.Əkbərovdur.

Sonra Z.Şahsevənli sözü "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevə verdi.

**"Mən təklif edərdim ki, Gəraybəyli kənd orta məktəbinə Xəqani Əkbərovun adı verilsin"**

"...Nəzakət xanımın rəhbərlik etdiyi Respublika "Xatirə kitabı" çox müqəddəs bir işlə məşğuldur. II Dünya Müharibəsindən indiyə qədər əsir düşən, itkin sayılan, Azərbaycanın müxtəlif bölgələrindən olan Vətən övladlarımız haqqında məlumatların toplanması, nəşr edilməsi bu redaksiyanın rəsmi olaraq ana vəzifəsidir. Ancaq redaksiya özünün ana missiyası ilə paralel olaraq heç də ondan geri qalmayan, onunla bərabərlik təşkil edən digər bir işi də aparır. Bu da Qarabağ müharibəsində bizim itkin düşmüş, şəhid olmuş qəhrəman oğullarımızla bağlı ayrıca olaraq bu cür silsilə kitabların yazılmasıdır. Bu, sadəcə, bir əsər, publisistik nümunə, hekayə, roman deyil, bu həm də həmin qəhrəmanın, həmin şəhidin keçdiyi həyat, döyüş yolunun yenidən maddiləşdirilməsi, yenidən əbədiləşdirilməsi, yenidən dəyərləndirilməsi və insanların yaddasında onların əbədi olaraq abidəsinin qoyulması üçün atılan bir addımdır. Mən heç şübhə etmirəm ki, hətta bu kitab yazılana qədər də mərhum Xəqaninin ruhunu, xatirəsini lazımi qədər qiymətləndirmisiniz, onu unutmayıbsınız, siz belə bir həmyerlinizin olduğunu bilirdiniz və onunla qürur duyurdunuz. Amma kitabın yazılması bir sistemdir, bir konsepsiyadır. Bu kitab gələcək nəsillərin, eləcə də Azərbaycanın digər yerlərində yaşayan insanların hətta Xəqaninin valideynlərini, yaxınlarını tanımasa belə, onun haqqında məlumat ala biləcəyi qiymətli bir mənbədir. Bu çox lazımlı bir işdir ki, Qarabağ müharibəsində fədakarlıq, igidlik göstərən Azərbaycan oğullarını yaşamağından, yaxud şəhid olmağından asılı olmayaraq, bütün Azərbaycan tanısın. Bu şəhidlik təkcə İsmayıllının naminə olan şəhidlik deyil, o, bütün Azərbaycan üçün şəhid olub. Xəqani bütün Azərbaycan üçün nümunə yaratdı getdi. Ona görə də belə əsərlərin yazılması həm tarixi, həm də çox böyük mənəvi əhəmiyyəti olan bir işdir. Şəhidlikdən Vətən başlayır, şəhidlikdən xalqımız yenidən doğulur, çünki hər bir şəhid öz şəhidliyi ilə nəyin uğrunda şəhid olduğunu aydın şəkildə göstərib gedir. O göstərir ki, onun arxasında Vətəni var, Vətənini qorumaq üçün şəhid oldu. O göstərir ki, namusunu, qeyrətini qoruduğu ana-bacısı var, onun üçün şəhid oldu. O göstərir ki, onun arxasında namusuna, şərəfinə ana-bacısı qədər hörmət qoyduğu xalqının namusu, qeyrəti var və onun üçün şəhid olub, onun üçün ölümə gedib. Ona görə də şəhidlər bizim üçün hər zaman qiymətlidir, onlar bizim üçün dəyərə çevrilib. Kimliyindən asılı olmayaraq, hər bir insan canını fəda edən şəhidlərin xatirəsini uca tutmalı, nəyə malikdirsə, buna görə həmin şəhidlərə minnətdar olmağı bacarmalıdır. Çünki şəhid torpağın altına getməklə torpağın üstündəki dəyərləri yaşadır, bu xalqı yaşadır".

N.Məmmədovanın rəhbərlik etdiyi redaksiyanın şəhidlərin xatirəsinin əbədiləşdirilməsi sahəsində müqəddəs bir işlə məşğul olduğunu qeyd edən A.Quliyev bildirdi ki, bu müqəddəs missiyanın həyata keçirilməsində "Bakı-Xəbər"in kollektivinin də xüsusi rolunun olması qürurvericidir.

Bu missiyaya özünün müqəddəs bir işi kimi baxdığını deyən A.Quliyevin sözlərinə görə, kitabın nəşr edilməmişdən əvvəl hissə-hissə rəhbərlik etdiyi qəzetdə çap olunması onun Azərbaycan xalqı və Vətənimizin ərazi bütövlüyü uğrunda həlak olan, itkin düşən insanların ruhu qarşısında göstərdiyi bir xidmətdir. "Yaxşı bir söz var: şəhidlər ölməsə, Vətən dirilməz. Bu çox qiymətli bir sözdür. Çünki şəhidlərin ölümü ilə təkrarən Vətən yaşayır, xalqımız yenidən doğulur... Mən sizin hamınıza təşəkkür edirəm ki, belə qəhrəman, fədakar oğul böyütmüsünüz, o oğulun xatirəsini həmişə uca tutmusunuz, əziyyət çəkib onun işığına yığışmısınız. Bu kitab sizə, sadəcə olaraq, bir daha xatırlatdı ki, sizin belə bir qəhrəman həmkəndliniz var. Əminəm ki, onun xatirəsini qiymətləndirmək lazım gələndə Gəraybəyli camaatı özündən asılı olan heç nəyi əsirgəməyəcək.

Toplaşdığımız Gəraybəyli məktəbi təzə tikilərək sizin ixtiyarınıza verilib. Mən təklif edərdim ki, Gəraybəyli kənd orta məktəbinə Xəqani Əkbərovun adı verilsin. Şəxsən mənim əlimdə ixtiyar olsaydı, bu məktəbə şəhidin adını verərdim. Ona görə ki, gələcəkdə bu məktəbə qədəm basan şagirdlər bilsinlər ki, adı bu məktəbə verilən oğlan kim olub, həyatının hansı çağında, nəyin xatirinə, kimlərin xatirinə şəhid olub" - deyə A.Quliyev qeyd etdi.

**"Biz Xəqaninin yolunu həmişə ümidlə gözləyirik"**

Z.Şahsevənli tədbiri davam etdirərək bildirdi ki, dağlara söykənən balaca bir kənddə X.Əkbərov kimi qəhrəman oğullar doğulub və yenə də doğulacaq. A.Quliyevin təklifinə dəstək olan Z.Şahsevənli də Gəraybəyli kənd orta məktəbinə X.Əkbərovun adının verilməsinin vacibliyini qeyd etdi, sonra isə sözü X.Əkbərovun dayısı, el ağsaqqalı Rəsul Səfərova verdi. R.Səfərov əvvəlcə qonaqları salamladı və bacısı oğlunu yada salanların hər birinə təşəkkür etdi. Xəqaninin müharibəyə könüllü getdiyini deyən R.Səfərovun sözlərinə görə, o, müharibədə şücaətlə döyüşüb, itkin düşüb. Hələ də Xəqaninin yolunu gözlədiklərini deyən R.Səfərov qeyd etdi ki, X.Əkbərov itkin düşdükdən sonra o, Xəqaninin qardaşı Knyaz Əkbərovla birgə bir neçə ay onun döyüşdüyü əraziləri qarış-qarış gəzib, eyni zamanda, müxtəlif təşkilatlara sorğu verməklə bacısı oğlundan bir soraq almaq istəyib, lakin heç bir informasiya əldə edə bilməyib. "Mən bu kitabı diqqətlə, qohumlarımın, həmyerlilərimin onun haqqında söylədiyi xatirələri kövrələ-kövrələ oxudum. Müəllif bu kitabda Xəqaninin bütün cizgilərini o qədər ustalıqla təsvir edib ki, hətta bu, onu görməyən şəxslərdə də onun haqqında aydın təsəvvür yaradır. O, gələcək, yoxsa gəlməyəcək, bunu bilmirik, amma biz Xəqaninin yolunu həmişə ümidlə gözləyirik" - deyə R.Səfərov vurğuladı.

"Xatirə kitabı" redaksiyasının nəşr etdirdiyi kitabların bir vətənpərvərlik örnəyi olması ilə yanaşı, həm də bu kitabların qəhrəmanları abidələşdirən nəşrlər olduğunu deyən R.Səfərov qeyd etdi ki, bu kitabları oxuyan yeni nəsillər özlərini qəhrəman Vətən oğullarına bənzədəcəklər.

**"Şəhidlər haqqında kitab yazmaq o qədər çətindir ki..."**

X.Əkbərovun komandiri olmuş Qasım Həsənov da onun cəsur döyüşçü, vətənpərvər bir gənc olduğunu qeyd etdi.

X.Əkbərovun orta məktəb müəllimi Hafiz müəllim çıxış edərək şagirdinin seçilən, təmkinli, vətənpərvər, ədəb-ərkanlı bir oğlan olduğunu qeyd etdi. O bildirdi ki, X.Əkbərov bütün kəndin, rayonun fəxr etdiyi qəhrəmanlardan biridir.

X.Əkbərovun qardaşı Knyaz Əkbərov da qardaşı haqqında xatirələrini danışdı. Bildirdi ki, ailədən qardaşını sonuncu görən o olub. "Qardaşlar arasında onu ən sonuncu görən mən olmuşam. Onu özüm Ağdamın Güllücə kəndinə aparmışam. Amma bir də ora gedəndə Güllücə kənd məktəbini dağılmış gördüm. Ona söz vermişdim ki, ayın 25-də gəlib səni aparacağam. Amma özümü günahkar bilirəm ki, dekabr ayının 25-i işimlə əlaqədar olaraq gedə bilmədim, 28-i günü getdim. Mən gedəndə isə kənddə heç kəs qalmamışdı..."

Tanınmış jurnalist Lətifə Əliyeva da çıxışında bildirdi ki, şəhidlər haqqında olan bütün söhbətlər kövrək bir sim üstə köklənir. "Şəhidlər haqqında kitab yazmaq o qədər çətindir ki... Mən əminəm ki, kitabın müəllifi bu kitabı, sadəcə, yazmayıb, ailə ilə birgə o itkini, ağrını, şəhidin keçdiyi həyat yolunu, ananın ağrısını yaşayıb" - deyə o bildirdi.

**"İlk dəfə idi ki, oğlu şəhid olan ananın belinin bu şəkildə büküldüyünü görürdüm"**

Respublika "Xatirə kitabı" redaksiyasının baş redaktoru, ictimai xadim Nəzakət Məmmədova rəhbərlik etdiyi redaksiyanın geniş və məhsuldar fəaliyyətindən danışdı: "Mən Xəqaninin anası Telli ananı görəndən sonra dəhşətə gəldim, dərd insanın qəddini necə əyərmiş. Bir yas yerində gördüm ananı. O, ayağa duranda gördüm ki, Xəqaninin dərdi Telli ananın belini əməlli-başlı büküb. Mən çox şəhid anası görmüşəm. 20 ilə yaxındır ki, Respublika "Xatirə kitabı" redaksiyasında işləyirəm, burada şəhid anaları ilə tez-tez rastlaşıram. İlk dəfə idi ki, oğlu şəhid olan ananın belinin bu şəkildə büküldüyünü görürdüm. İnanın ki, bu mənə o qədər pis təsir etdi, bir neçə gün özümə gələ bilmədim. Ana mənə oğlundan danışdı. Hətta bir epizodu heç unutmuram. Dedi ki, Nəzakət, bir dəfə qışın ortasında, çöldə qar yağan zaman durub çöldə yatdım, dedim görüm mənim balam qarlı-şaxtalı gecədə çöldə necə yatır. Xəqaninin taleyini hər kəs bilir. Biz ona şəhid deyə bilmirik, onun sorağı hər an gələ bilər. Xəqaniyə həsr edilən "Gözlər yoldan yığılarmı..." kitabı "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından üçüncü kitabdır.

Biz bunu "Bakı-Xəbər" qəzeti ilə birgə həyata keçiririk. Qəhrəmanlar qəhrəman doğulmurlar, onlar qəhrəman olurlar, elə bir an yetişir ki, onlar bir anın içində qəhrəman olurlar. Xəqani elə bir ailədən idi ki, o ailə onu müharibəyə getməkdən çəkindirə bilərdi, amma onun daxilindəki mübarizlik, aldığı tərbiyə, Vətən sevgisi onu bu yoldan çəkindirə bilmədi".




N.Məmmədova qeyd etdi ki, "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından hazırda dördüncü kitab yazılır, müəllif Kəmalə Mirzəzadədir və kitab Saatlı şəhidinə həsr edilib. N.Məmmədova bildirdi ki, 5-ci kitab isə Xocalıdan olan Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmova həsr olunacaq.

"Xatirə kitabı"nın xüsusi buraxılışından danışan N.Məmmədova bu nəşrin əhəmiyyətini də qeyd etdi: "Bizə iki ildir yeni bir layihə tapşırılıb. Bu olduqca vacib bir layihədir. Ermənilər indiyə qədər bizə belə bir statistika göndərmişdilər ki, orada bizim 600-ə yaxın əsir və itkinimiz var. Amma Dövlət Təhlükəsizliyi Xidmətinin arxivləri və bizim redaksiya ortaya belə nəticə qoya bildi ki, onların sayı 3888 nəfərdir. Nə qədər ki, hələ əsir və girovlar var, gözlər yoldan yığılmamalıdır".

Nəşrin iki dildə çap olunduğunu xatırladan N.Məmmədova bildirdi ki, artıq "Xatirə kitabı"nın xüsusi buraxılışının ikinci cildi də çap edilib və yaxın günlərdə nəşrin təqdimatı keçiriləcək.

***İradə SARIYEVA***
***İsmayıllı-Gəraybəyli-Bakı***

### Tovmasyanın qızıl qələmi Paşinyanın boğazında "kal armud"a döndü...

**Ermənistanın baş naziri Nikol Paşinyan aldığı bahalı hədiyyə üzündən çətin vəziyyətə düşüb.**



Məsələ burasındadır ki, hakimiyyətə gəlişinin ilk dövründə apardığı "təmizləmə" əməliyyatı zamanı o, Konstitusiya Məhkəməsinin başçısını işdən azad etdikdən sonra, guya özü də bilmədən (!) ondan bahalı hədiyyə qəbul edib, lakin sonradan bu addımın ona ciddi başağrısı olacağını gördükdə publikanı aldatmağa yönəlmiş nağıllar uydurmağa başlayıb.

Beləliklə, Paşinyan bildirir ki, guya baş nazir seçildikdən sonra "Ayastan" ümumerməni Fondunun Himayəçilər Şurasının 2018-ci ilin mayında keçirilən iclasında Qrayr Tovmasyanla ilk dəfə görüşüb və nə təsadüfsə, öz üzərində qələm olmadığından, bəzi qeydlər etmək üçün ondan qələmini istəyib. Tovmasyanın cibində isə həmin gün niyəsə qızıl qələm olub və Paşinyan qeydlərini etdikdən sonra qələmi qaytarmaq istədikdə Tovmasyan təkidlə onda qalmasını istəyib. "Nağıl"ın bu yerində Paşinyan özünü daha da dolaşdıraraq deyir ki, guya bir neçə dəfə qələmi atmaq istəyib, amma tərəddüd edib. Soruşan gərək, insan bir qələmi niyə atmaq istəsin ki? Bu tərəddüdünün səbəbini isə o belə izah edir ki, guya Tovmasyanın siyasi komandasını cəmi bir neçə gün əvvəl dağıtmış bir insana qarşı yaltaq davranışı ona qəribə görünüb. Hətta onun "cənab Paşinyan can", "cənab Baş nazir can" kimi müraciətlərinin indiyə qədər "qulağını deşdiyini" bildirən Paşinyan daha sonra yazır ki, növbəti dəfə Tovmasyanla Milad bayramında görüşüb, lakin ona yaltaqlanmaq imkanı verməyib. Tovmasyan isə bu dəfə arvadı Annaya yaltaqlanıb, qızına təqaüd ayrıldığına görə ona minnətdarlıq edib.

Nəhayət maraqlıdır, erməni baş naziri niyə bu nağılı indi uydurmağa başlayıb? Bunun bir neçə səbəbi ola bilər. Bu səbəblərdən ən önəmlisi isə öz ölkəsində reytinqinin hər keçən gün düşdüyü bir ərəfədə onun "qələm şantajı" ilə də üz-üzə qoyula biləcəyidir və bu haldan özünü sığortalamaq üçün, sadəcə, qabaqdangəlmişlik edir.

Yeqin, özünü hər şeydən xəbərdar biri kimi təqdim edən erməni baş naziri bir sadə həqiqəti hələ də dərk etməyib: el dilində deyildiyi kimi, loğma boğmadır axı…

***SAMİRƏ***

# Saatlının Hacı Qasımlı, Naharlı, Məzrəli, Qaracalar və Gomuşçu kəndləri də "Əhliman Əmiraslanovu seçəcəyik" dedi...





**Yeni Azərbaycan Partiyasının 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizəd, akademik Əhliman Əmiraslanovun təbliğat-təşviqat kampaniyası uğurla davam edir.**



Əhliman Əmiraslanov Saatlı rayonunda bir qrup seçiciləri ilə görüş keçirib. YAP Saatlı rayon təşkilatında keçirilən görüşdə rayonun Hacı Qasımlı, Naharlı, Məzrəli, Qaracalar və Gomuşçu kəndlərindən olan seçicilər iştirak edib. Görüşdə çıxış edən YAP Saatlı rayon təşkilatının sədri Lütfəli Şıxəliyev ölkəmizdə keçiriləcək parlament seçkiləri ilə bağlı məlumat verib. L.Şıxəliyev bildirib ki, budəfəki parlament seçkiləri yeni islahatlar dövründə ölkəmizin inkişafının daha da sürətlənməsinə təkan verəcək: "Prezident İlham Əliyevin müəyyənləşdirdiyi düzgün sosial-iqtisadi siyasət nəticəsində bu gün ölkəmizdə vətəndaşların sosial rifah halı gündən-günə yaxşılaşır".

O, seçiciləri "Daha güclü Azərbaycan naminə" Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən deputatlığa namizəd, akademik Əhliman Əmiraslanov əvvəlcə ölkəmizin qazandığı böyük nailiyyətlər haqqında danışıb. O, YAP-ın Azərbaycan dövlətçiliyinin inkişafında mühüm xidmətlərini vurğulayıb, hazırda ölkəmizdə xalqla iqtidar arasında sarsılmaz birlik olduğunu deyib: "YAP hər zaman xalqın yanında yer alıb. YAP seçkilərə "Daha güclü Azərbaycan naminə!" şüarı ilə qatılır. Bu isə bütün sahələrdə, o cümlədən vətəndaşlarımızın sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində aparılan işlərin bundan sonra da davam etdirilməsi deməkdir".

Görüşdə iştirak edən seçicilər çıxış edərək bildiriblər ki, yenə də dövlətin siyasi kursuna və hakim partiyanın namizədi olan Əhliman Əmiraslanova səs verəcəklər.



# 80 saylı dairədən namizəd Vüqar Alkərəmovun Beyləqanda və İmişlidə seçicilərlə izdihamlı görüşləri davam edir...

**Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təbliğat - təşviqat kampaniyası çərçivəsində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən namizəd Alkərəmov Vüqar Oruc oğlunun seçicilərlə görüşləri davam etməkdədir.**

Vüqar Alkərəmov yanvarın 24-də Beyləqan rayonunun Dünyamalılar, Qaragüvənlikli, Bəhrəmtəpə və Sərxanlı kənd sakinləri ilə görüşlər keçirib.

Yanvarın 25-də isə Vüqar Alkərəmovun İmişli rayonunun Əliyetməzli, Qarallar, Boşçalılar, Şahverdili və Göbəktala kənd sakinləri ilə görüşləri baş tutub.





Fevralın 9-da Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərinə 20-dən çox siyasi partiya qatılıb. Yanvarın 17-dən başlanan təbliğat-təşviqat kampaniyası davam edir. Budəfəki seçkiqabağı təşviqat kampaniyası əvvəlki seçkilərdə müşahidə etdiklərimizdən xeyli fərqlənir.**



# Deputatlığa namizədlər seçki platformalarında Qarabağ məsələsinə necə yanaşır və ya yanaşırlarmı...

***Məhərrəm Zülfüqarlı:*** *"Qarabağ məsələsinə bir sıra hallarda namizədlər ya toxunmur, ya da bəzi namizədlər ümumi olaraq buna münasibət bildirirlər"*

Fərq ondan ibarətdir ki, namizədlərin həm sosial şəbəkələrin imkanlarından, həm digər rəqəmsal alətlərdən geniş istifadə etdikləri müşahidə edilir. Məqsəd daha geniş müstəvidə təbliğat aparmaqdır.

Ancaq maraqlıdır ki, budəfəki seçkilərdə partiya namizədlərinin platformalarında, şüarlarında, çağırışlarında, demək olar, Qarabağ məsələsi nəzərə çarpmır. Bu həm partiyalardan, həm də müstəqil şəkildə namizədliyini irəli sürən şəxslərə aiddir. Bir sıra namizədlər seçkiyə vahid platforma ilə gedirlər. Qarabağ məsələsinin namizədlərin platformalarında xüsusi olaraq qabardılması müşahidə edilmir. Xüsusi olaraq Qarabağla bağlı şüarların səsləndirilməsi o qədər də nəzərə çarpmır. Ümumi olaraq bu məsələyə toxunulur. Ancaq bu heç də bütün partiyaların timsalında özünü göstərmir. Bir sıra partiya sədrləri bildirirlər ki, Qarabağ münaqişəsinin həlli ilə bağlı onların mövqeyi dəyişməyib. Ümumi olaraq bildirirlər ki, sözügedən məsələ siyasi-hərbi yolla həll edilməlidir.

Bütün bu deyilənlərin fonunda maraqlıdır, namizədlərin seçki platformasında Qarabağ məsələsinin qoyuluşu məqbul sayıla bilərmi? Yanaşmalarda əsasən hansı tendensiyalar var?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, deputatlığa namizədlərin platformalarında Qarabağla bağlı şüarlar məqbul səviyyədə deyil: "Namizədlər əsasən öz seçki dairələrinin problemləri ilə məşğul olmağı üstün tuturlar. Platformalarında da öz seçicilərinə yönəlik mesajları verməyə çalışırlar. Qarabağ məsələsinə bir sıra hallarda namizədlər ya toxunmur, ya da bəzi namizədlər ümumi olaraq buna münasibət bildirirlər. Onlar hesab edirlər ki, Qarabağ bölgəsindən, məcburi köçkün rayonlarından olan namizədlər bununla bağlı şüarlar irəli sürsünlər. Hesab edirəm ki, bu düzgün yanaşma deyil. Yadda saxlamaq lazımdır ki, Azərbaycan xalqının ümummilli problemləri var. Hər bir deputatlığa namizəd olan şəxs bunu yadda saxlamalıdır. Ona görə də Dağlıq Qarabağ probleminin ədalətli həllinə dəstək məsələsi də mütləq olmalıdır. Hər bir namizəd öz platformasında mütləq ümummilli problemlərin də həllinə yer ayırmalıdır. Bunlardan ən başlıcası Dağlıq Qarabağ problemidir. Çünki bunlar parlamentdə tək hansısa dairənin məsələsini yox, Azərbaycan məsələlərini qanunvericiliklə həll edəcəklər. Qanunvericilikdə də Dağlıq Qarabağla bağlı çoxlu məsələ ortaya çıxa bilər. Ona görə də deputatlığa namizədlər bu amili yaddan çıxarmamalıdırlar. Bu amili hansısa namizəd yaddan çıxarırsa, deməli, həmin namizəddə ümummilli mənafe məsələsində nəsə problem var".

*"Hesab edirəm ki, bu düzgün yanaşma deyil"*

***Vidadi ORDAHALLI***

**Ermənistan Baş naziri Nikol Paşinyan keçirdiy mətbuat konfransında maraqlı açıqlamalar verib. O, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinə toxunub. Paşinyan Serj Sarkisyan hakimiyyəti dövründə danışıqlar masasında olan sülh sazişinin detallarını bölüşüb:**



# Paşinyan vasitəçilərin 26 ildə ərsəyə gətirdiyi Qarabağ həll planından rəsmən imtina etdi - vasitəçilərin yolverilməz susqunluğu ifşa olunur...

"Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sənəd Füzuli, Ağdam, Zəngilan, Qubadlı, Cəbrayıl, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılmasını nəzərdə tuturdu. Amma Qarabağla Ermənistan arasında dəhlizin olması da şərt kimi sazişə daxil idi. Tərəflər ATƏT, yaxud BMT-nin bayrağı altında referendum yolu ilə Dağlıq Qarabağın yekun statusunu müəyyən etməli idi. Həmin referendumun nəticəsi məcburi hüquqi önəmə malik olmalı və bütün beynəlxalq prinsiplərə riayət etməli idi".

Nikol Paşinyan Qarabağ ətrafındakı rayonlardan erməni birləşmələrinin çıxmasından sonra bölgəyə beynəlxalq sülhməramlıların yerləşdirilməsini və bundan sonra azərbaycanlıların öz ev-eşiklərinə qayıtmalı olduğunu xatırladıb: "Amma sülhməramlılar Laçın və Kəlbəcər rayonlarında yerləşməli deyildi. Kəlbəcər ATƏT-in müvəqqəti monitorinqi altında qalmalı idi. Digər müddəa Dağlıq Qarabağın yekun statusunun müəyyənləşməsinə qədər keçid status almasında idi. Yayılan məlumatlarda bu sənədlərdən söhbət gedir. İndi bizi ittiham edirlər ki, biz bu irsi itirmişik" .

O, Ermənistanın həmin sənəd əsasında danışıqlara başlamağa hazır olacağı halda, dünya birliyinin buna mane olmayacağını əlavə edib: "İndi qoy, Qarabağda "prezidentliyə" namizəd olanlar mətnin onlar üçün məqbul olub-olmamasını desinlər. Qoy, Qarabağ xalqı, Ermənistan xalqı bu mətnin onlara məqbul olub-olmadığını desinlər. Əgər Qarabağ xalqı bu sənədlərin danışıqlar üçün əsas olduğunu düşünürsə, əmin edirəm ki, anındaca danışıqlar masasında olacaq".

Paşinyan beynəlxalq vasitəçilərin səyi ilə uzun illər ərzində ərsəyə gələn bu planı Sarkisyan hakimiyyətinin alver etməsi kimi qiymətləndirib və deyib ki, o, hakimiyyətə gələndən sonra buna son qoyulub. Bununla Paşinyan, faktiki olaraq, beynəlxalq vasitəçilərin səyi ilə ərsəyə gələn plandan imtina etdiyini bildirib. Maraqlıdır ki, beynəlxalq vasitəçilər, prosesdə yaxından iştirak edən həmsədr ölkələr bu bəyanata hələ də etirazlarını bildirməyiblər. Bu susqunluğun səbəbi nə ilə bağlıdır?

Qeyd edək ki, Paşinyanın bu açıqlamasından sonra Dağlıq Qarabağdan olan bir sıra siyasilər onun dediklərinə reaksiya veriblər. Erməni KİV-i onların açıqlamalarının mətnini geniş şəkildə tirajlayıb. Qondarma qurumun keçmiş "rəsmiləri" və indiki "prezidentliyə namizədlər" Paşinyanı yalan danışmaqda ittiham ediblər.

Onların bəzilərinin açıqlaması daha sərt olub. Bildiriblər ki, bir qarış belə torpağın qaytarılması müzakirə mövzusu ola bilməz. Əslində, bu fikirlərin Ermənistanın daxili auditoriyasında müzakirəyə çıxarılması həm də klanlar arasında gedən müharibənin açıq müstəviyə sirayət etməsidir. Paşinyan bununla xalqın həssas damarına toxunur və bildirir ki, şərti adı "Qarabağ klanı" olan qruplaşma işğal edilmiş torpaqları qaytarmağa hazır olub. Özünü qəhrəman kimi qələmə verən Paşinyan bu plandan imtina etdiyini deyir. Paşinyana cavabı verənlər danışıqlar prosesinə məsul olmayıblar. Yəni gördüklərini yox, eşitdiklərini danışırlar. Yaxşı olardı ki, onun ittihamlarına elə Serj Sarkisyanın özü cavab verəydi. İstənilən halda, prosesi izləyənlər bilirlər ki, Paşinyanın hakimiyyətə gəlməsi ərəfəsində münaqişənin həlli istiqamətində diplomatik səylər bir qədər güclənmişdi. Bir neçə rayonun qaytarılması ilə bağlı müzakirələr hətta Rusiya mətbuatında da gedirdi. Azərbaycanın mövzu ilə bağlı mövqeyi korrektdir. Bunu dəfələrlə Prezident İlham Əliyev də bəyan edib. Bizim ərazi bütövlüyümüzü tam təmin etməyən hər hansı razılaşma bizim üçün məqbul sayılmır. Buna baxmayaraq, Paşinyanın beynəlxalq hüquqa, ən əsası da beynəlxalq vasitəçilik səylərinə meydan oxuması faktı ortadadır. Açıq şəkildə bəyan edir ki, o, hər hansı kompromisə imkan verməyib və gələcəkdə də bu barədə düşünmür.

Onun etdiyi son etiraf isə həmsədrləri və onların səylərini ümumiyyətlə saymadığına bir işarədir. Yaxşı olardı ki, Paşinyanın açıqlamasına ilk reaksiyanı elə həmsədrlər verəydi. Təəssüflər olsun ki, biz həmsədrlərdən daim ütülü bəyanatlar və məsuliyyəti hər iki tərəfin üzərinə qoyma kimi mövqenin ifadəsindən başqa nəsə görməmişik.

**Bu məsələdə onların bildiricəyi fikir konkret olmalıdır. Bir ölkənin başçısı əldə olunan ən xırda kompromisi belə rədd etməyi ilə fəxr edirsə, deməli, həmsədrlər onunla sülh danışıqlarının heç bir perspektivinin olmadığını açıq bəyan etməlidirlər. Biz hələlik belə prinsipial mövqenin şahidi olmuruq. Deməli, Paşinyan ondan hər hansı konstruktivliyin gözlənilməsinin yersiz olduğunu bəyan edir. Həmsədrlər isə buna susursa, deməli, danışıqlar imitasiyadan başqa nəyəsə aparmır.**

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanda blokada vəziyyətinə ağlasığmaz yeni izah - "Azərbaycan bizi milyardların hesabına blokadaya salıb", siyasi-diplomatik uğursuzluq ört-basdır edilir...

**Ermənistan mətbuatı bütün cəhdləri ilə Paşinyanın buraxdığı növbəti ciddi səhvin düzəldilməsi istiqamətində səfərbər olub. Söhbət Paşinyanın bir müddət əvvəl ölkəsinin ümumdaxili məhsul göstəricisinə görə Cənubi Qafqaz ölkələri arasında birinci yeri tutduğu ilə bağlı səsləndirdiyi fikirdən gedir.**

Qeyd edək ki, həmin açıqlamadan sonra həm Azərbaycan, həm də Gürcüstan Paşinyanın yalan danışdığını konkret faktlarla ortaya qoydular. Rəqəmlərin qarşısında aciz qalan Paşinyan təkzib verməyə məcbur oldu.

Buna baxmayaraq, Ermənistan KİV-i hələ də onlar üçün uğursuz olan bu mövzunu eşələməklə məşğuldur.

Rəsmi Tiflisin və Bakının Paşinyana verdiyi cavabı onlar guya iki ölkənin Ermənistana qarşı qısqanc yanaşması ilə izah edirlər. Hətta bildirirlər ki, Ermənistanın iqtisadi cəhətdən geriləməsinin səbəbi özü ilə bağlı deyil. Bunu ölkələrinin blokada şəraitinə salınması ilə izah edirlər. Xüsusilə də qeyd olunur ki, Ermənistanın blokadasının bu şəkildə uzun sürməsində rəsmi Bakının lobbiçilik üçün xərclədiyi milyardlarla pulların böyük rolu var.

Çox maraqlıdır ki, erməni KİV-i ölkələrinin blokada şəraitinə düşməsinin əsl səbəbini gizlədir. Özlərinin işğalçı siyasətinin buna səbəb olduğunu və bu amildən Bakının məharətlə istifadə etməyi bacarıb, siyasi-diplomatik yollarla onları uğursuzluğa salmağı bacardığını etiraf etmirlər.

Ermənistandan blokada şəraitində yaşamalarına verilən qeyri-adi izah nə ilə bağlı ola bilər?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son 10 il ərzində dünyada Azərbaycan dövlətinin artan nüfuzu onun xarici siyasətinin möhkəmlənməsi, məhz onun siyasi diplomatik dəst-xətti, müasir dövlətçilik simasına, inkişaf yoluna söykənir: "Bu gün üçün Azərbaycan dövlətinin diplomtik korpusunun dövlətin milli maraqlarına söykənərək, müasir dünyanın reallıqlarının nəzərə alınması, tərəfdaşların ümumi potensialının Azərbaycan dövlətinin maraqlarının təmin olunmasında istifadə olunması üçün səfərbər edilməsi tablosu göz önündədir. Təşəbbüskar, iştirakçısı və icraçısı olduğumuz qlobal, regional proseslərdə ədalətə və beynəlxalq hüquqa söykənən Azərbaycanın mövqeyinin təqdim olunması və ümumi prosesin bizim baxışlarımıza əsasən getməsinə hesablanmış, kiçik və üzünmüddətli hesablarda ümumi proseslərin Azərbaycanın baxışına adaptasiyası siyasəti yürüdülür.

Burada bir haşiyəyə çıxım ki, bütün dünyada olduğu kimi, Cənubi Qafqaz regionu ətrafında da gedən proseslər onu göstərir ki, artıq konfliktlərin dəstəklənməsi ilə regionlara nəzarət siyasəti özünü doğrultmur. İstər Cənubi Qafqaz, istərsə də postsovet regionlarına mövcud konfliktlər və daha öncə qeyd etdiyim kimi, bunların dəstəklənməsi ilə nəzarət siyasəti artıq effektiv deyil. Bu, artıq iqtisadi cəhətdən qeyri-səmərəli, siyasi cəhətdən isə problemlidir.

Azərbaycan da günümüzün mürəkkəb regional çağırışlarının həlli üçün tərəfdaşları və əməkdaşlıq etdiyi dairələrlə enerji, təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində, ortaq imkanları ümumi maraq olan sabitlik və inkşafa yönəltməsi siyasəti yürüdür.

Xarici siyasətimizn əsasında qitələrarası transmilli enerji nəqli marşrutlarında strateji bənd olan Cənubi Qafqazda sülh, stabillik və təhlükəsizliyin bərqərar olması üçün region ölkələrinə münasibətdə, beynəlxalq hüququn norma və prinsipləri, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət kimi baza prinsiplər təmin olunmalı və bu prinsiplərə əməl edilməsinin vacibliyinə diqqət yetirilməsi durur".

Politoloqun sözlərinə görə, regionda beynəlxalq hüququn norma və prinsiplərinin təmin olunması dövlətlərin iqtisadi, diplomatik və təhlükəsizlik sferalarında mövcud münasibətlərin inkişaf etməsi və güclənməsinə xidmət edəcək bir addım olacaq: "İllərdir artıq diplomatik xidmətlərimiz təmsil olunduqları ölkələrdə, təşkilatlarda Ermənistanın işğal və təcavüzkar siyasətinin təkcə Azərbaycanın deyil, bütün tərəfdaşların maraqlarına ziyan vurması reallığını çatdırır.

Xarici siyasətimizin fəaliyyətinin önəmli hissəsi beynəlxalq tərəfdaşlara ölkəmizin regiondakı güclər arasında balanslı, milli maraqlarına uyğun müəyyənləşdirdiyi və həyata keçirdiyi müstəqil və çoxvektorlu xarici siyasətinin ana xəttini Dağlıq Qarabağ probleminin həllinin tezləşdirilməsi və bunun Cənubi Qafqaz regionu üçün açacağı perspektivlər haqqında fikir formalaşdırması və inandırması durur.



İştirakçısı olduğumuz istənilən bütün qlobal və regional layihələrin hamısında əsas şərt, pozulmuş beynəlxalq hüquq və normaların bərpası, ərazi bütövlüyünün təmin olunması tələbi və işğalçı Ermənistanın təcavüzkar siyasətinin davam etdirməsi ümumi maraqlara bir hədə kimi göstərilir.

**Bu fəaliyyət üçün isə Azərbaycanın bütün diplomatik-siyasi, lobbi imkanları səfərbər olunub.**

**Odur ki Ermənistanın blokada vəziyyətinə "Azərbaycan bizi milyardların hesabına blokadaya salıb" iddiası mövcud olduqları vəziyyətin öz işğalçı fəaliyyətinin məntiqi nəticəsi olduğunu və siyasi-diplomatik uğursuzluqlarını ört-basdır etməsi cəhdidir.**

**Bu həm də Ermənistanda hər şeyə qadir erməni lobbi mifinin dağılması, cəmiyyətin bu institutun imkanlarına arxayınlıq, güvən indeksinin düşməsidir".**

***Məhəmmədəli QƏRİBLİ***

# Gürcüstanın Azərbaycandan "qaz asılılığı" ətrafında erməni intriqaları başladı - hədəf seçki ərəfəsində ictimai rəyi Rusiya qazına tərəf döndərməkdir...

**Aparılan hesablmalar göstərir ki, ötən il Gürcüstan Azərbaycandan 1 milyard 723 milyon kubmetr həcmində təbii qaz idxal edib. Azərbaycandan qonşu ölkəyə ixrac olunan təbii qazın ümumi dəyəri 286 milyon dollara bərabər olub. Qonşu ölkənin təbii qaz idxalının 87,12%-i Azərbaycanın payına düşüb.**



Təbii qaza olan tələbatını əsasən idxal hesabına təmin edən Gürcüstan 2020-ci ildə Azərbaycandan 2 milyard 385,2 milyon kubmetr qaz əldə etməyi ümid edir. Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin 2020-ci il üçün təsdiq etdiyi təbii qaz balansına əsasən, Azərbaycan Gürcüstana mavi yanacağın əsas tədarükçüsü olaraq qalır. Belə ki, 2020-ci ildə "Şahdəniz" layihəsi çərçivəsində Gürcüstana 873,8 milyon kubmetr, SOCAR şirkəti tərəfindən 1 milyard 511,4 milyon kubmetr qaz tədarük olunacaq. Bütün bunlar Gürcüstanın qaza tələbinin ödənilməsində Azərbaycanın mühüm rol oynadığını aydın göstərir. Belə vəziyyət son günlərdə erməni mediasının diqqətini çəkməyə başlayıb. Belə ki, Ermənistan mediasında gözlənilmədən Gürcüstanın Azərbaycandan enerji asılılığının müzakirə edildiyi paylaşımlar meydana çıxdı. Məsələn, "armtoday"in iddiasına görə, hazırda qaz sektorunda Tiflis, demək olar ki, tamamilə Azərbaycandan olan tədarüklərdən asılıdır. Başqa sözlə, Azərbaycan birbaşa olaraq Gürcüstanın enerji təhlükəsizliyini təmin edir. Bəs niyə Gürcüstanın enerji təhlükəsizliyi Ermənistan mediasını bu qədər narahat edir?

Ekspertlər bildirir ki, burada erməni mediasının əsas niyyəti yenə Azərbaycan və Gürcüstan arasında konfliktli vəziyyət yaratmaqdır. Elə gürcü iqtisadçı-ekspert, Yeni İqtisadiyyat Məktəbinin prezidenti Paata Şeşelidze də belə düşünür: "Həqiqətən də, Gürcüstan enerji təhlükəsizliyi məsələsində Azərbaycandan asılıdır. Texniki nöqteyi-nəzərdən hər şey məhz belədir. Lakin mən bunda təhdid görmürəm, çünki bu, Rusiyadan qaz tədarükündən imtina etdiyimiz zaman Tiflisin şüurlu seçimi olub. İndi biz Azərbaycandan tədarükdən asılıyıq. Bakı burada - Gürcüstanda imtiyazlar alır. Azərbaycanın faktiki olaraq Gürcüstanda rəqibi yoxdur. Ümumilikdə, Tiflislə Bakı arasındakı əməkdaşlıq qarşılıqlı faydalıdır. Bir daha təkrarlayıram, biz Rusiya qazından asılı olmaq istəmədik və Azərbaycanı seçdik. Gürcüstanın enerji təhlükəsizliyini təmin etmək üçün başqa yolu yoxdur". Ekspert "media" portalına açıqlamasında Gürcüstanın Qara dənizin Gürcüstan sektorunda neft və qaz potensialını araşdırmağa başlamasına da toxunur və istənilən halda ölkəsinin Azərbaycana ehtiyacının olacağını vurğulayır: "Qeyd etmək istəyirəm ki, Gürcüstan bu işləri çoxdan aparır. Lakin hələlik nəticə yoxdur. Bəli, Gürcüstanın şərq hissəsində müəyyən həcmdə qaz istehsal olunur, lakin bu kifayət deyil. Qara dənizdəki qaza gəldikdə, yəqin siz bilirsiniz, bura xüsusi su hövzəsidir. Dənizin dərinliklərində faktiki olaraq həyat yoxdur, lakin qaz var. Onu çıxarmaq və istifadə etmək olarmı? Bu mövzu çoxdan müzakirə olunur. Tədqiqatlarla ABŞ şirkəti məşğul olur. Ermənistan KİV-də məhz indi Gürcüstanın Azərbaycandan enerji asılılığı barədə danışılan yazıların meydana çıxmasına gəlincə, dəqiq deyə bilmərəm, lakin ehtimal etmək olar ki, hər şey Gürcüstanda bu il keçiriləcək parlament seçkiləri ilə bağlıdır. Ermənistanda qəbul etdikləri impuls Rusiya Federasiyasından gəlir. Bizdə qazın Rusiyadan alınması lehinə çıxış edən qruplar var. Bu yolla ictimai rəy hazırlığı aparılır". Ekspert bildirir ki, ölkəsi üçün ən etibarlı mənbə məhz Azərbaycandır. Gürcüstan baş nazirinin iqtisadi məsələlər üzrə müşaviri Beka Liluaşvili isə diqqəti həm də "Cənub Qaz Dəhlizi"nə yönəldir:"Gürcüstan üçün "Cənub Qaz Dəhlizi" layihəsində iştirak böyük məsuliyyətdir. Gürcüstan bu layihədə iqtisadi və siyasi körpü rolunu oynayır.

Gürcüstanın bu layihədə iştirakı yalnız coğrafi və infrastruktur baxımından məhdudlaşmır. Ölkəmiz bu layihədə, həmçinin, iqtisadi və siyasi körpü rolunu da oynayır. "Cənub Qaz Dəhlizi" layihəsi Gürcüstanın strateji tərəfdaşları olan Avropa İttifaqı və ABŞ-ın da maraqlarına uyğundur. Layihə Avropa İttifaqının enerji bazarının təhlükəsizliyinin artırılmasına yönəlib. Amma Azərbaycandan gələn bu layihə Gürcüstanın enerji təhlükəsizliyi üçün də müstəsna önəm kəsb edir".

***Nahid SALAYEV***

# Ermənistan yenidən tam prezidentli respublika quruluşuna qayıdır - Paşinyan Konstitusiya komissiyasını yaratdı

**Məlum olduğu kimi, Ermənistanda yeni konstitusiya üzərində iş gedir. Konstitusiyanın yeni mətnini hazırlayacaq komissiyanın tərkibi isə Ermənistanın baş naziri Nikol Paşinyanın təşəbbüsü ilə formalaşdırılır.**



"Jamanak" nəşrinin xəbərinə görə, çoxları komissiyanın Ermənistanın prezident idarəetmə sisteminə keçməsi ilə bağlı layihə təqdim edəcəyinə əmindir. İdarəetmə sisteminin dəyişib-dəyişməyəcəyini söyləmək çətin olsa da, belə görünür ki, Ermənistan yenidən prezident üsul-idarəsinə qayıdır.

Erməni mediası yazır ki, Paşinyan artıq bu formada cəmiyyətin diqqətini müəyyən müddət sosial problemlərdən yayındırmaq istəyir. Məsələ ilə bağlı "armenianreport" saytı yazır ki, 2020-ci ildə Ermənistanın daxili siyasi gündəliyinin əsas məsələlərindən biri məhz konstitusiya dəyişikliyi olacaq. Artıq bununla bağlı Ermənistan Milli Konqresi tərəfindən yarı-prezident idarəetmə modelinin qaytarılması ilə bağlı əsas təklif verilib: "Ermənistan Milli Konqresinin Rusiyada Putinin yarı prezidentlik modelinə keçmək niyyətini açıqladığı çıxışından "ilhamlandığını" söyləmək çətindir. Putin, baş nazirin namizədliyini təsdiqləmək də daxil olmaqla, parlamentin səlahiyyətlərini artırmaq, dövlət şurasının səlahiyyətlərini artırmaq üçün konstitusiyaya dəyişiklik etməyi təklif edir. Başqa sözlə, Putin Prezident İnstitutu yanında digər institutları da gücləndirməyi təklif edir. Klassik mənada bu, yarı prezidentlik ola bilməz, amma hakimiyyətin sahiblər baxımından bir qədər qütbləşdirildiyi aydındır. Praktiki olaraq, Putin bir qütbləşmədən başqa qütbləşməyə keçid edir. Ancaq Ermənistanda yarı prezident modelinin bərpası mərkəzləşməyə keçid demək olacaq, çünki parlament idarəetmə modelində, əlbəttə ki, əsas səlahiyyət yalnız parlamentə aiddir, amma praktikada bu, "vahid şəxsiyyət siyasətinə", institusional mərkəzləşdirməyə söykənir. Ancaq problem ondadır ki, Ermənistanda prezident seçkiləri institutunun bərpası əslində qeyri-sabitlik baxımından vacib amilinin bərpası ilə təhdid olunur və burada, əlbəttə ki, mövcud qanuni hökumət və inqilabdan sonrakı demokratiya aldatma səbəbi olmamalıdır. Siyasi rəqabətin tərkib hissələrinin, elementlərinin formalaşması başqa bir məsələdir və bu ümumi bir ictimai məqsəd naminə olmalıdır. Demokratiyanın əsl sınaq vaxtı elə həmin bu vaxt olmalıdır. Ermənistanın uğursuz siyasi sahəsində sabitliyin qarantı kimi görünən prezident seçkisi institutunun bərpası Ermənistanın qondarma sərt demokratiyada hakimiyyətdən sui-istifadə etmə meyli dərəcəsini artıracaq. Siyasi sistem və perspektivi isə hər hansı qüvvənin aldanmamaq və aldanılmaz olması üzərində qurulmamalıdır. Bu mənada, Ermənistan üçün bəlkə də stimul olaraq, qeyd etdiyimiz kimi, çox nadir olan və istənilən variantın çox uğurlu, bəzən uğursuz nümunələri mövcud olan dünya təcrübəsi yox, öz təcrübələri olmalıdır. Bu təcrübə bədbəxtlikdən, ya xoşbəxtlikdən, ən azı prezident və ya de-yure yarı prezident idarəçiliyinin siyasi səmərəsizliyi və çoxsaylı sistem qüsurlarının ortaya çıxması nəticəsində parlament idarəetməsinin lehinə olmasından xəbər verir".

Digər tərəfdən ekspertlər hesab edir ki, bütün bunların kökündə Paşinyanın hakimiyyət hərisliyi dayanır. Bununla bağlı portal yazır: "Situasiya onunla dərinləşir ki, Paşinyan inqilabın ilk dəqiqəsindən özündən başqa kimsəni baş nazir kimi görmürdü və bunu qətiyyən gizlətmirdi. "Mən və ya heç kim" formulu bu gün də qüvvədədir. Amma indi Paşinyan prezidentlik iddiasına düşüb. Bütün hallarda Ermənistanın siyasi səhnəsi ilə bağlı bir nəticəyə şübhə yoxdur: hazırda bu səhnə dolaşıq düşmüş "siyasi yumağa" bənzəyir. N.Paşinyan qısa müddətdə onsuz da dolaşıq olan Ermənistan siyasi mühitini qatı "dumana bürüməyi" bacardı! Bu münasibətlə onu təbrik etmək olar! Lakin erməni xalqı üçün fəlakətli və vahiməli günlər bundan sonra başlaya bilər. Xüsusən də ölkə yenidən prezident üsul-idarəsinə qayıtsa. Erməni xalqı artıq öz iradəsini ortaya qoyub, üzdəniraq "demokratik" siyasətçilərin dərsini verməlidir. Amma cəmiyyət siyasi dərketmə baxımından o dərəcədə öldürülüb ki, sadə erməni nəyin baş verdiyini anlaya bilmir". Bütün bunlar qarşıdakı günlər ərzində Ermənistanda xaosun dərinləşməsini də istisna etmir. Digər tərəfdən diqqət ona yönəldilir ki, vəziyyətə ayıq başla baxanlar, o cümlədən Paşinyan hökumətinin siyasətini tənqid edən və keçmiş hakimiyyətdə təmsil olunmuş siyasətçilər bir-birinin ardınca həbs edilir. Hətta hazırkı hakimiyyətin öz nümayəndələri də bu təhlükədən sığortalanmayıb.

Hər hansı məmurun Nikol Paşinyana qarşı çıxması onun barəsində cinayət işinin açılması üçün arqumentə çevrilir. Artıq Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq rəisi Artur Vanesyanın ətrafında baş verənlər bunun real təsdiqidir.

***Tahir TAĞIYEV***

Ermənistanda Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanla Baş nazir Nikol Paşinyan arasında münaqişə daha da dərinləşib. Hakim siyasi qüvvənin bütün cəhdlərinə rəğmən, vəzifədən getməkdən imtina edən H.Tovmasyan müqavimət göstərir. Paşinyan isə onu həbs etməyə çalışır.

# Paşinyan həbs etmək istədiyi Konstitusiya Məhkəməsinin sədrindən rüşvət aldığını etiraf etmək zorunda qaldı...



## Arzuxan Əlizadə: "Paşinyan istəyir ki, hakimiyyətin bütün qollarında, o cümlədən, məhkəmələrin başında ona yaxın adamlar olsun"

Ermənistan rəhbərliyi Tovmasyanın həbsinin onlara Konstitusiya Məhkəməsinin digər üzvlərinə təzyiq göstərməyə və məhkəmə üzvlərini istefaya məcbur etməyə imkan verəcəyinə əmindir. Məlumata görə, hətta Paşinyan Xüsusi İstintaq Xidmətinin rəhbər heyətini çağırıb, onun göstərişlərini həyata keçirməyi, H.Tovmasyanın işini bitirməyi və qanunsuzluqlardan qorxmamağı tapşırıb.

Bununla belə, Paşinyan sosial şəbəkədəki hesabında onun ünvanına bir sıra aşağılayıcı fikirlər səsləndirib. Paşinyan iddia edir ki, Baş nazir seçildikdən sonra ilk dəfə H.Tovmasyanla 2018-ci ilin may ayında Hayastan Ümumerməni Fondunun Himayəçilik Şurasının iclasında görüşüb. İddia edib ki, Tovmasyan yaltaqlanıb və onun bu hərəkəti onu təəccübləndirib: "Yalnız mənimlə "cənab Paşinyan can", "cənab baş nazir can" deyərək əlaqə saxladı. Bütün ünsiyyət dövrümüzdə o mənə yalnız "can" olaraq müraciət etdi".

Daha sonra Paşinyan bunları yazıb: "Sonra qeydlər aparmalı oldum, amma qələm tapa bilmədim. Xatırlamıram, soruşdum və ya qələm axtardığımı görüb mənə bu "elit" qələm təklif etdi".

Paşinyan deyib ki, Tovmasyan ona verdiyi qızıl qələmi geri götürmək istəməyib: "Bir sözlə, bu qələm "sədaqət qarantı" olaraq qaldı. Bir neçə dəfə qələmi geri almaqdan imtina etdi. Başa düşdüm ki, Konstitusiya Məhkəməsi sədri vəzifəsini tutan şəxs bununla legitimlik qazanmaq istəyir. Bir qələmin qiymətini bildikdən sonra şoka düşdüm. Əslində, aldatma yolu ilə Konstitusiya Məhkəməsinin başçısı olmuş şəxs yeni təyin olunmuş Baş nazirə bahalı bir hədiyyə təqdim edərək, bu prosesi "İcevandan olan ailənin kürəkəni"olduğunu incə işarələrlə göstərir".

Bütün hallarda, Paşinyan bununla Konstitusiya Məhkəməsinin sədrindən rüşvət aldığını etiraf edib. Daha dəqiq desək, bunu etiraf etmək məcburiyyətində qalıb. Paşinyan hər vasitə ilə H.Tovmasyanı sıxışdırsa da, əslində, onun özünün qanunsuzluğu ortadadır.

**"İstənilən halda, onun məlum addımı Tovmasyandan rüşvət alması anlamına gəlir"**

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin fikrincə, Paşinyanın əsas hədəfində Konstitusiya Məhkəməsi sədrinin olması təsadüfi deyil: "Məsələ ondadır ki, Ermənistanda Konstitusiya Məhkəməsinin sədri H.Tovmasyan Serj Sarkisyanın prezidentliyi dövründə bu vəzifəyə gəlib. Bu da Paşinyanın maraqlarına uyğun deyil. Paşinyan istəyir ki, hakimiyyətin bütün qollarında, o cümlədən, məhkəmələrin başında ona yaxın adamlar olsun. Onun Tovmasyana olan intriqalarının kökündə məhz bu amil dayanır. Səlahiyyəti imkan vermir ki, Ermənistanda Konstitusiya Məhkəməsinin sədrini vəzifəsindən azad etsin. Ona görə də intriqalar vasitəsilə onu oyundankənar vəziyyətdə saxlamağa çalışır. Paşinyan hesab edir ki, müstəqil məhkəmə onun üçün təhlükəli institutdur. İstənilən halda, Paşinyanın məlum addımı Tovmasyandan rüşvət alması anlamına gəlir. Hərçənd, Paşinyan müxtəlif vasitələrlə bunu maskalamağa çalışır".

**Vidadi ORDAHALLI**

Ermənistan Baş naziri Nikol Paşinyan növbəti yalan məlumatlarla ölkə ictimaiyyətini aldatmağa çalışır. O, erməni mətbuatına deyib ki, guya hakimiyyətə gələndən sonra ordu ən yeni silahlarla təchiz edilib, hərbi texnika müasir və işlək vəziyyətdədir.

# Paşinyanın erməni cəmiyyəti ilə "ən müasir silahlar" blefi - "sən bu silahları hansı pullarla almısan"...



## Məhəmməd Əsədullazadə: "Ermənistanın elə bir vəsaiti yoxdur ki, silah arsenalını yeniləsin"

Paşinyan yeni silahlar, o cümlədən, Su 30 SM çoxfunksiyalı qırıcılar və ASEZ zenit-müdafiə sistemlərindən bəhs edib. İddia edib ki, bütün biunlar Ermənistanda qanuni bir hökumətin qurulmasının əsas nəticəsi idi. Guya Ermənistanın hazırkı hakimiyyəti 2016-cı ilin aprel müharibəsindən dərs götürərək bu işləri görüb. Ermənistan ordusunun silah inventarı ancaq 80-ci illərə aid olan silahlardan ibarət olub və guya Paşinyan bu vəziyyəti dəyişib. Bununla belə, o bu sahədə bütün günahları əvvəlki hakimiyyətin, xüsusən də eks-prezident Serj Sarkisyanın üstünə atıb. Guya Paşinyanın qanuni hakimiyyəti Ermənistana daha çox işlər görməyə və müharibədən əvvəl Rusiya qarşısında məsuliyyət məsələsini qaldırmağa imkan verdi. Nəticədə Rusiya ən müasir silah komplekslərini Ermənistana satdı.

Açıq-aydın görünür ki, bu, Paşinyanın növbəti yalanıdır. Məsələ ondadır ki, müasir silahlar əldə etmək üçün böyük vəsaitə ehtiyac var. Paşinyan hakimiyyətə gələndən sonra Ermənistanın dövlət büdcəsi, gəlirləri əsaslı şəkildə artmayıb ki, belə müasir silahlar əldə edə bilsin. Ermənistanın hazırkı dövlət büdcəsi 3,5 milyard dollardır. Belə olan halda, hansı pulla müasir silahlar alıb? Onun bu barədə səsləndirdiyi fikirlər nə dərəcədə inandırıcıdır?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Paşinyanın yeni silahlarla bağlı səsləndirdiyi fikirlər uydurmadır: "Ermənistan regionda Rusiyanın forpostu olmaqla yanaşı, üçüncü ölkələrdən silahların alınması üçün yetərincə maliyyə vəsaitinə malik deyil. Müstəqillikdən bu günə qədər Rusiyanın satileti olaraq bu ölkədən kredit yolu ilə silahlar idxal edib. Baş nazir Nikol Paşinyanın açıqlamasına gəldikdə isə, o, Rusiyadan alınmış silahları digər ölkələrin silahları kimi təqdim edir. Bu, ənənəvi erməni yalanıdır və Azərbaycana guya mesaj verir. Serbiyadan yalnız atıcı silahlar alırlar və bunu uğur kimi dəyərləndirirlər. Hesab edirəm ki, bu gün Azərbaycanın malik olduğu hərbi arsenal qarşısında Ermənistanın silahları primitiv və yalnız cüzi miqdarda müasir rus silahlarıdır. Sadəcə, Paşinyan populizmə üstünlük verərək bu kimi yalan açıqlamalar verir. Ermənistan daxilində iqtisadi vəziyyət böhranlıdır və Paşinyan çalışır ki, ölkədə narazılığı silah alışı vasitəsilə ört-basdır etsin. Ancaq erməni cəmiyyəti yaxşı bilir ki, yalnız Moskvanın hesabına malik olduğu silahlarla bu gün Paşinyan belə pozlar verir. Hansı ki, həmin silahlar heç də deyildiyi kimi müasir deyil. Digər tərəfdən, Ermənistanın elə bir vəsaiti yoxdur ki, silah arsenalını yeniləsin. Kreditlə hansısa silahların alınması o demək deyil ki, bu ölkə müasir silahlar əldə edib. O üzdən, bununla bağlı Paşinyanın səsləndirdiyi fikirlər, sadəcə, ağ yalandır".

**"...Paşinyanın səsləndirdiyi fikirlər, sadəcə, ağ yalandır"**

**Vidadi ORDAHALLI**

# President Sarkisyan Yerusəlimdə İsrail dövlət elitasına yalanlar qalmadı uydurdu...

*Necə olur ki, Azərbaycanla müqayisədə əhalisi iki dəfə az olan Ermənistanın 300 min vətəndaşı müharibədə həlak olub?*

**Məlum olduğu kimi, Osvensimin azad edilməsinin 75-ci ildönümü ilə bağlı İsraildə keçirilən tədbirlərdə Ermənistan Prezidenti Armen Sarkisyan da iştirak edib. Ermənistan Prezidenti İsraildə yüksək səviyyədə qarşılanıb. Belə ki, onun şərəfinə Qüdsün hasarlarında lazerlə Ermənistan bayrağı dalğalandırılıb və ermənicə "Xoş gəldiniz Qüdsə!" yazılıb.**

İsrail parlamentinin (Knesset) başçısı Ermənistan Prezidentinə deyib: "Xoş gəlibsiniz, sizi burada qarşılamaq bizim üçün xoşdur".

A.Sarkisyan o qədər yüksək səviyyədə qarşılanıb ki, sanki İsrailin ən əziz qonağı elə o imiş. İsrail Prezidenti Reuven Rivlin Ermənistan Prezidentini salamlayaraq deyb: "Sizinlə Yerusəlimdəki Prezident Sarayında görüşmək mənim üçün böyük şərəfdir".

Bununla belə, A.Sarkisyan İsrail Prezidenti Reuven Rivlin ilə görüşündə bir sıra yalanlar uydurub. O bildirib ki, məlum hadisə iki xalqı birləşdirən çox qanlı bir hekayədir. O mənada ki, guya bir vaxtlar ermənilər də "soyqırıma" məruz qalıblar: "Düşünürəm ki, 1915-ci ildə baş verənlərə dünyanın susması 1931, 1936, 1942-ci illərdə baş vermiş hadisələrə, Holokost zamanı baş verənlərə səbəb oldu".

Daha sonra A.Sarkisyan utanmadan bildirib ki, İkinci Dünya Müharibəsi zamanı Ermənistan nasizmə qarşı mübarizəyə töhfə verib: "Sizinlə və başqa millətlərlə birlikdə nasistlərə qarşı mübarizə apardıq. Qürurla deyə bilərəm ki, sovet ordusunda altı yüz minə yaxın erməni döyüşmüş, onlardan üç yüz min nəfəri bu mübarizədə həlak olub. Ermənilər hamımızın uğrunda vuruşaraq dünya sülhünə, Sovet İttifaqına öz töhfələrini verdilər. Bu mübarizəyə böyük töhfə verən xalqımı təmsil etməkdən qürur duyuram".

Əvvəla ondan başlayaq ki, İkinci Dünya Müharibəsində 600 min erməni iştirak etməyib. Məsələ ondadır ki, Ermənistanda o vaxt 1,6 milyon nəfər əhali olub. Onların da hamısı ermənilərdən ibarət olmayıb. Əhalinin çoxu azərbaycanlı olub. Belə olan halda, 600 min erməni necə müharibəyə gedə bilərdi? Bu tamamilə yalandır. O cümlədən, guya 300 min ermənin müharibədə həlak olması fikri də absurddur. Müqayisə üçün qeyd edək ki, İkinci Dünya Müharibəsində Azərbaycanda təqribən 3 milyon nəfər yaşayırdı. O zaman 640 min nəfər müharibəyə gedib. Onlardan 420 min nəfəri həlak olub. Belə olan halda, necə olur ki, Azərbaycanla müqayisədə əhalisi iki dəfə az olan Ermənistanın 300 min vətəndaşı müharibədə həlak olub? Başqa bir tərəfdən, İkinci Dünya Müharibəsində SSRİ-nin qələbəsi Bakı nefti hesabına mümkün oldu. Müharibə zamanı neftə olan tələbatın 75 faizi Azərbaycan hesabına təmin edilib. Bunu Prezident İlham Əliyev də bir sıra beynəlxalq tədbirlərdə qeyd edib. Ölkə başçısı qeyd edib ki, məhz Azərbaycan İkinci Dünya Müharibəsinin qələbə ilə bitməsinə daha çox töhfə verib.

Başqa bir tərəfdən, Ermənistan İkinci Dünya Müharibəsinin qələbə ilə bitməsinə töhfə verən ölkə olsaydı, o zaman faşistlərlə yaxından əməkdaşlıq edən, onlara xidmət edən Qaragin Njdeyə heykəl qoyulmazdı. Hansı ki, İkinci Dünya Müharibəsi zamanı Vermaxtın tərkibində 20 min nəfərlik erməni legionu yəhudilərin qətlə yetirilməsində xüsusi fəallıq göstərirdi. Erməni legionu həbs düşərgələrində ölüm marşları təşkil edib. Bununla yanaşı, Adolf Hitlerin təbliğat-təşviqat naziri Yozef Göbbelsin nəzarəti altında sırf ermənilərdən təşkil olunmuş rus, erməni, fransız və alman dillərini bilən radio təbliğatçıları fəaliyyət göstərirdilər. Həmin ermənilər III Reyxin digər xalqlara təbliğat materiallarını ötürməkdə müstəsna xidmətlər göstərirdilər.



Bununla yanaşı, 1936-cı ildə Almaniyada nəşr olunan "Hayrenik" adlı erməni qəzetində diqqətçəkən məqamlardan biri də qəzetin yəhudilərə qarşı açıq-aşkar nifrət, iqri ayrıseçkiliyi əks etdirən çağırışları təbliğ etməsidir. "Hayrenik" qəzeti o zamankı sayında yazırdı: "Yəhudilər fanatik milliyyətçiliyin və irqçiliyin törəmələridirlər. Bu zəhərli ünsürləri xroniki xəstəliklər kimi kök saldıqları yerdən təmizləmək bəzən çətin olur. Ancaq onların məhv edilməsinə ehtiyac olduğu zaman, bu cür addımın atılması düzgün sayılmalıdır. Cərrahiyyə əməliyyatı zamanı qanın axması təbiidir".

10 may 1935-ci ildə "Hayrenik" qəzeti Rumıniyanın paytaxtı Buxarest şəhərində bələdiyyə rəhbərinin irqçi və antisemitizm mahiyyəti daşıyan çıxışını böyük fəxrlə dərc edir. Buxarest şəhərinin bələdiyyə rəhbəri erməni qəzetinin nəşr etdiyi həmin çıxışında deyirdi ki, "ermənilər bizə, yəni rumınlara yəhudilərin köləsi olmamağımız üçün böyük kömək etdilər".

Həmçinin, Njde şəxsən özü Bolqarıstanda yəhudilərin soyqırıma məruz qalmasına rəhbərlik edib.

Çox təəssüf doğuran məqam ondan ibarətdir ki, İsrail Prezidenti A.Sarkisyanın yuxarıda səslənən yalanlarına heç bir reaksiya verməyərək onu dinləyib. Hansı ki, İsrail rəsmiləri ermənilərin İkinci Dünya Müharibəsinə hansısa töhfə vermədiyini yaxşı bilirlər. Əslində, sözügedən konfransa Azərbaycan Prezidenti xüsusi dəvət edilməli idi. Çünki İkinci Dünya Müharibəsinin qələbə ilə başa çatmasında Azərbaycanın müstəsna xidmətləri var. Azərbaycan nefti sayəsində müharibədə dönüş əldə edildi. İndiyə qədər Azərbaycanda faşistlərə xidmət edən şəxslərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı heç bir təşəbbüs olmayıb. Ancaq bundan fərqli olaraq Ermənistan faşistlərlə əməkdaşlıq edənlərə heykəl qoyur. Dəfələrlə Prezident İlham Əliyev Ermənistanın bu iyrənc siyasətini ifşa edib. O üzdən, Osvensimin azad edilməsinin 75-ci ildönümü ilə bağlı İsraildə keçirilən tədbirə xüsusi olaraq Azərbaycan Prezidenti dəvət edilməli idi. Ancaq İsrailin ədalətsizliyinə bax ki, faşist Njdeni qəhrəmanlaşdıran Ermənistan Prezidentini qucaqlayaraq isti qarşılayırlar. Budurmu ədalət?

O baxımdan İsrailin sözügedən məsələdə sərgilədiyi siyasət tamamilə yanlış və ədalətsizdir. Hansısa siyasi maraqlara görə bu dərəcədə Ermənistan Prezidentinin İkinci Dünya Müharibəsi ilə bağlı uydurduğu yalanlara təmkinlə qulaq asmaq, bu ölkənin ən ali şəxsini həmin görüşə dəvət etmək İsrailə hörmət gətirmir. O baxımdan bunun heç bir tarixi və məntiqi əsası yoxdur. İsrailin bu addımı utancverici bir siyasətdir və buna heç cür bəraət qazandırmaq olmaz.

***Vidadi ORDAHALLI***

# Azərbaycan üzərindən Şimal-Cənub xətti ilə axan milyardlar 72-yə çatdı...

**Dünya miqyasında da artıq tam şəkildə vurğulanır ki, Azərbaycanda nəqliyyat sahəsində müasir logistika və infrastruktur mövcuddur. Məhz bu fonda "Şərq-Qərb" və "Şimal-Cənub" kimi nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçməklə beynəlxalq əməkdaşlığa yeni təkan verir.**

Digər tərəfdən, yaranmış vəziyyət bu dəhlizlər vasitəsilə Azərbaycan üzərindən daha çox yüklərin daşınmasına rəvac verir. Məsələnin bu tərəfinə nəzər salan İranın Gilan vilayətinin valisi Ərsalan Zare vurğulayır ki, ölkəsinin ixracının yüksəlməsində bu gün Azərbaycan əvəzsiz rol oynayır.

O bildirir ki, İranın Rusiya və digər MDB dövlətləri ilə idxal-ixrac əməliyyatlarının 70 faizi Xəzər dənizi sahilindəki limanlar vasitəsilə həyata keçirilir. Təmsil etdiyi vilayətin dəniz sahilində yerləşməsi Xəzəryanı dövlətlərlə ticarət əlaqələrinin inkişafına böyük imkan yaradır və bu məsələdə Azərbaycanın malik olduğu infrastruktur mühüm rol oynayır. Zare diqqətə çatdırıb ki, "Şimal-Cənub" dəhlizinin əsasını təşkil edən Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu Gilan vilayətindən keçərək Azərbaycana, oradan isə Rusiya və Avropaya qədər uzanacaq. Dəmir yolu istifadəyə verildikdən sonra Gilan vilayəti ilə Azərbaycan arasındakı idxal-ixrac əməliyyatlarının həcmi artacaq. Bununla yanaşı, İranın cənubundakı vilayətlər də bu yoldan səmərəli istifadə edərək, ticarət əlaqələrini genişləndirə biləcəklər.

Qeyd edək ki, Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin Qəzvin-Rəşt hissəsi ötən ilin martında istifadəyə verilib. Yolun Rəşt-Astara hissəsində isə inşaat işləri davam edir. Bu yol İran, Azərbaycan və Rusiyanın dəmir yollarını birləşdirəcək. məhz bundan irəli gəlir ki, indinin özündə ABŞ-ın tətbiq etdiyi iqtisadi sanksiyalara baxmayaraq, İranın xarici ticarət dövriyyəsi 72 milyard dollara çatıb. Sanksiyalara baxmayaraq, İran "Şimal-Cənub" dəhlizi üzrə layihələrini davam etdirir. İranın Baş Gömrük İdarəsinin sədri Mehdi Mirəşrəfi bildirib ki, hazırda Azərbaycanla tranzit yüklərin gömrük-keçid məntəqələrindən keçərkən qeydiyyatının elektronlaşdırılması üzrə danışıqlar aparılır. Onun sözlərinə görə, "Şimal-Cənub" dəhlizi vasitəsilə həyata keçirilən idxal-ixrac əməliyyatları və tranzit daşımalar elektron qaydada qeydə alınacaq. Bu, gömrük prosedurlarını asanlaşdırmaqla yanaşı, vaxt itkisinin də qarşısını alacaq. Gələcəkdə, Azərbaycanla yanaşı, Hindistan və Rusiya da bu layihəyə qoşulacaq.

İranın yollar və şəhərsalma naziri Məhəmməd İslami də bildirib ki, görülən işlər nəticəsində Azərbaycanla İran arasındakı nəqliyyat əlaqələri inkişaf etdirilir. Onun sözlərinə görə, iki ölkə arasında nəqliyyat əlaqələrinin genişlənməsi ticarət dövriyyəsinin artmasına və tranzit imkanlarının genişlənməsinə böyük imkanlar yaradır. Nazir nəzərə çatdırıb ki, "Şimal-Cənub" dəhlizinə daxil olan bu yollardan təkcə İranla Azərbaycan deyil, regionun digər ölkələri də faydalanacaq.

Bütün bunlar bəri başdan deməyə əsas verir ki, "Şimal-Cənub" nəqliyyat dəhlizində yükdaşımalar mütləq artacaq. Ermənistanın "İravnuk" qəzeti bu fonda yazır ki, İran üçün İrəvan daha sürətlə arxa plana keçir: "Rusiya və İran kimi Ermənistanın ənənəvi ticarət tərəfdaşları son illərdə Azərbaycanla böyük layihələr həyata keçirir. Bu səpkidə Ermənistan getdikcə daha çox ofsayt vəziyyətə düşür. Amma buna qarşı da hansısa addım atılmır və belə vəziyyət Azərbaycanın əlini gücləndirir".

Ümumiyyətlə, "Şimal-Cənub" istiqamətində fəaliyyətin genişlənməsi Ermənistanı getdikcə daha çox narahat edir. Xatırladaq ki, ötən il "Şimal-Cənub" dəhlizi ilə daşınmalarda artım 38% təşkil edib. Ümumiyyətlə, bu istiqamət strateji cəhətdən əhəmiyyətlidir. Şimalda Skandinaviya ölkələri, həmçinin Rusiya, cənubda isə İran kimi böyük ölkələrin bir-biri ilə yük mübadiləsinin




əsasən bu yolla həyata keçirilməsi nəzərdə tutulur. Regionda baş verən siyasi, iqtisadi proseslər də göstərir ki, bu yol nə dərəcədə əhəmiyyətlidir. Ələt-Astara dəmir yolu xəttinin yenidənqurulması bitdikdən sonra qatarların hərəkəti sürətli və rahat olduğu təqdirdə daşınan yüklərin də artacağı ehtimal edilir. Elə bu da Azərbaycana marağı artırır.

**Digər tərəfdən faktdır ki, Mərkəzi Asiya ölkələrindən yüklərin dəniz vasitəsilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan Avropaya və Körfəz ölkələrinə daşınması da getdikcə populyar bir marşruta çevrilir. Xüsusən də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində Azad Ticarət Zonasının yaradılması, logistika mərkəzinin formalaşdırılması artıq ölkənin gəlirlərini artırır. Bu da o deməkdir ki, nəqliyyat sektoruna qoyulan investisiya böyük effekt yaratmaqla xidmət etdiyi sahələrin inkişafını stimullaşdırır.**

***Tahir TAĞIYEV***

# DİN və Baş Prokurorluq Zamin Salayevlə bağlı xəbərlərə tam aydınlıq gətirdi

*"Törətdiyi cinayətlərə görə əvvəllər də üç dəfə məhkumluq həyatı yaşayan, spirtli içki aludəçisi olan Zamin Salayevin..."*






**Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi azadlıqdan məhrum edilmiş Salyan rayon sakininin guya polis əməkdaşı tərəfindən zorakılığa məruz qalması və özünü qadının müdafiəçisi kimi göstərmək istəyən digər bir sakinə işgəncə verilməsi barədə əsassız xəbərlərlə bağlı məlumat yayıb.**

Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərindən baki-xeber.com-a verilən birgə məlumata görə, son günlər bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə ölkəmizdə sabitliyin pozulmasında maraqlı olan şəxslər tərəfindən qəsdən sağlamlığa ağır zərər vurma cinayətinə görə azadlıqdan məhrum edilmiş Salyan rayon sakini Aytəkin Abıyevanın guya polis əməkdaşı Həmzə Əzizov tərəfindən zorakılığa məruz qalması və özünü Aytəkin Abıyevanın müdafiəçisi kimi göstərmək istəyən həmin rayonun sakini Zamin Salayevə (Əlizamin Salayev) işgəncə verilməsi barədə məlumatlar yayılır. Əslində heç bir əsası olmayan, reallıqdan tamamilə uzaq, vətəndaşlarda dövlət qurumlarına inamsızlıq yaratmaq niyyəti güdən və qərəzli şəkildə uydurulan bu cür məlumatlarla bağlı bildirilir ki, 2019-cu il avqustun 8-də qohumu ilə rəsmi nikaha daxil olub ailə həyatı qurmuş Aytəkin Abıyeva əri ilə birgə Bakı şəhərinə köçüb və bundan on gün sonra adı istintaqa məlum olan keçmiş sevgilisinə zəng edib onunla Salyan şəhərinə gəlib və dörd gün müddətində müxtəlif ünvanlarda qalıblar.

Həyat yoldaşının polisə müraciəti əsasında avqustun 22-də tapılıb ailəsinə qaytarılan, daha sonra valideynlərinin yanına qayıdan Aytəkin Abıyeva yeni tanış olduğu başqa bir şəxslə telefon əlaqəsi saxladığı üçün anası tərəfindən tənbeh edildiyindən sərbəst yaşamaq qərarına gələrək 2019-cu il sentyabrın 10-da xəbər vermədən evdən gedib. Aytəkin Abıyevanın itkin düşməsi barədə ailə üzvlərinin Daxili İşlər Nazirliyinin 102 Xidmətinə müraciəti əsasında həmin gün o, polis əməkdaşları tərəfindən tapılıb valideynlərinə təhvil verilib.

Bir neçə gün evlərində qalan Aytəkin Abıyeva 2019-cu il sentyabrın 16-da yenidən evdən qaçıb əvvəldən yaxın münasibətdə olduğu digər tanışı ilə görüşüb. Ertəsi gün onun itkin düşməsi barədə valideynləri yenidən Salyan Rayon Polis Şöbəsinə müraciət ediblər. Müvafiq araşdırmanın aparılması baş təhqiqatçı Həmzə Əzizova tapşırılıb. Həyata keçirilmiş axtarış tədbirləri ilə Aytəkin Abıyevanın olduğu yer müəyyənləşdirilib və o, saxlanılıb qardaşına təhvil verilərkən buna etiraz olaraq üzərindəki bıçaqla Həmzə Əzizova həyat üçün təhlükəli olan ağır xəsarət yetirib.

Fakt üzrə Salyan Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29-cu və 120.2.3-cü (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanılıb və Aytəkin Abıyeva məhkəmənin qərarı ilə şübhəli qismində tutulub.

Aytəkin Abıyeva müdafiəçisinin iştirakı ilə verdiyi ifadələrdə ittiham üzrə özünü təqsirli bilib, cinayəti törətdiyi günədək Həmzə Əzizovla heç bir münasibətinin olmadığını və hər hansı polis əməkdaşı tərəfindən ona qarşı qanunsuz hərəkətə yol verilmədiyini göstərib.

Onun həmin cinayət əməlini törətməsi özünün səmimi ifadələri ilə yanaşı, istintaq zamanı toplanmış, birbirini tamamlayan təkzibedilməz sübutlarla, o cümlədən hadisəni görən ailə üzvlərinin və digər çoxsaylı şahidlərin ifadələri, mobil telefon danışıqları barədə məlumatlar və ekspertiza rəyləri ilə tam təsdiqlənib.

Lənkəran Ağır Cinayətlər məhkəməsinin hökmü ilə Aytəkin Abıyevanın əməli Cinayət Məcəlləsinin 126.2.2-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsinə tövsif olunub və o, bu cinayətdə təqsirli bilinərək 7 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Qeyd olunmalıdır ki, özünü Aytəkin Abıyevanın müdafiəçisi kimi göstərməyə cəhd edən Zamin Salayev xəbər verildiyi kimi, 2020-ci il yanvarın 13-də Bakı şəhərində ictimai qaydanı pozan hərəkətlərə yol verdiyinə və bununla əlaqədar polis işçilərinin qanuni tələblərinə qəsdən tabe olmadığına görə məhkəmənin qərarı ilə inzibati qaydada həbs edilib.

Saxlanılan zaman bütün prosessual hüquqları təmin olunan Zamin Salayev vəkili və ailə üzvləri ilə görüşüb. Ombudsman Aparatının əməkdaşları müvəqqəti saxlama yerində ona baş çəkiblər.

Eyni zamanda, Daxili İşlər Nazirliyi tərəfindən aparılan xidməti yoxlama prosesində Zamin Salayev, polis əməkdaşları tərəfindən hər hansı işgəncəyə və zorakılığa məruz qalmadığını bildirib. Bu xüsusat nazirliyin təşəbbüsü ilə Zamin Salayevin DİN-in Hospitalında keçirilmiş tibbi müayinəsi ilə təsdiqlənib.

**Törətdiyi cinayətlərə görə əvvəllər də üç dəfə məhkumluq həyatı yaşayan, spirtli içki aludəçisi olan Zamin Salayevin Aytəkin Abıyevanın təzyiqə məruz qalması və hətta zorlanması barədə şərəf və ləyaqəti alçaldan böhtanlar yayması da qərəzdən başqa bir şey deyil və onun neqativ həyat təcrübəsinin və dünyagörüşünün təzahürüdür.**

# Belə təhsil şöbə müdirləri həbs edilməsə, təhsil buxovlardan tam xilas ola bilməz

**Təhsil naziri Ceyhun Bayramov keçirdiyi brifinqdə deyib ki, ötən il 10 məktəb rəhbəri, direktor və direktor müavinlərinin müqavilələrinə xitam verilib, işdən kənarlaşdırılıb. Nazir bildirib ki, ötən il korrupsiya faktlarına görə 6 rayon təhsil şöbəsinin rəhbərinin müqavilələrinə xitam verilib.**



O qeyd edib ki, həmin dövrdə 10 rayon təhsil şöbəsinin əməkdaşına, 3 ərazi maliyyə-hesablaşma mərkəzinin rəhbərinə inzibati tədbirlər təqdim edilib: "Bir sıra təhsil müəssisələrində ciddi faktların olması nəticəsində 7 halda materiallar hüquq-mühafizə orqanlarına hüquqi qiymət verilməsi üçün təqdim edilib".

Nazir qeyd edib ki, müqavilələrinin müddəti sona çatan 80 nəfər məktəb rəhbəri davamlı olaraq aşağı nəticələr göstərdiyi və məktəbi idarəetmədə bir sıra pozuntulara yol verdikləri üçün növbəti dəfə müqavilələrinin uzadılmaması barədə qərar qəbul edilib: "Əfsuslar olsun ki, bu istiqamətdə hələ də pozuntular olan hallarla rastlaşırıq. Belə olan təqdirdə, bu il də belə hallar olacaqsa, Təhsil Nazirliyi tərəfindən sərt formada ciddi reaksiya veriləcək".

## *Mələhət Mürşüdlü: "Hüququn imkan verdiyi çərçivədə sərt cəzalar tətbiq edilməlidir ki, başqaları üçün də görk olsun"*

Göründüyü kimi, Təhsil naziri rəhbərlik etdiyi sahədə korrupsiya və digər qanunazidd olan əməllərin qarşısını almaq üçün kifayət qədər vəzifəli şəxsin işindən azad edildiyini bildirib. Təhsildə olan neqativliklərin aradan qaldırılması istiqamətində atılan bu inzibati addımları həmin sahədəki vəziyyəti nizama salmaq baxımından nə dərəcədə əhəmiyyətli saymaq olar?

Təhsil eksperti Mələhət Mürşüdlü qəzetimizə açıqlamasında bildirdi ki, belə neqativliklərin aradan qaldırılması üçün mütləq hansısa tədbirlər görülməlidir: "Təbii ki, atılan bütün inzibati addımların bir tərbiyəvi əhəmiyyəti olur. Ancaq gəlin məsələyə bir qədər hüquqi aspektdən yanaşaq. Söhbət rüşvətdən və korrupsiyadan gedirsə, bu, cinayət əməli sayılır. Belə əməldə məsuliyyəti yalnız alan yox, həm də verən daşıyır. Biz çalışıb elə etməliyik ki, rüşvəti verən də buna meylli olmasın. Qanunvericilikdə bunun hər ikisi üçün cəza nəzərdə tutulur. Bu səbəbdən də bir qədər də sərt cəzalar tətbiq olunmalıdır. Biz təhsilimizi xilas etmək istəyiriksə, yalnız işdən çıxarmaqla kifayətlənmək olmaz. Hüququn imkan verdiyi çərçivədə sərt cəzalar tətbiq edilməlidir ki, başqaları üçün də görk olsun. İstənilən halda, bu istiqamətdə görülən işlərin tərbiyəvi əhəmiyyətinin ola biləcəyini düşünürəm. Təhsildə rüşvətin olması millətin gələcəyini məhv edir. Bununla daha ciddi üsullarla mübarizə aparılmalıdır".

*Məhəmmədəli QƏRİBLİ*

# Kiçik və orta biznes subyektləri üçün məhsullarını Azərbaycan marketlərinə çıxarmaq problemi kəskinləşir...

**"Azərbaycanda kiçik və orta biznesin iri market şəbəkələrinə çıxması ilə bağlı problemlər var". Bu barədə bir neçə gün öncə qida sənayesinə həsr olunan toplantıda Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəhbəri Orxan Məmmədov bildirib.**



## *Natiq Cəfərli: "...əsas maneələrdən biri də inhisarçılıqdır"*

O.Məmmədov qeyd edib ki, bir sıra hallarda qida sənayesində çalışan iş adamlarının qida istehsalı və satışı ilə bağlı normativ prosedurlar və sanitar-gigiyena barədə məlumatsızlıqları problem yaradır və müdaxilə kimi başa düşülür: "Kiçik və orta sahibkarların bilik və bacarığının artırılması üçün inkişaf mərkəzləri yaradılır. İri market şəbəkələrinə girişdə problemlər var. Bəzi obyektiv və subyektiv səbəblər də var. Bunun qarşısını almaq üçün tənzimləmə mexanizmlərinə və dövlət dəstək mexanizminin tətbiqinə ehtiyac var və bununla bağlı təkliflər hazırlanıb. Həmçinin, dövlət dəstəyinin təşviqinə ehtiyac var. Təşkil mexanizmləri var və bu barədə də məlumatlandırma olmalıdır". Kiçik və orta biznesin iri market şəbəkələrinə çıxışında nə kimi problemlərin yarandığını öyrənmək məqsədilə iqtisadçı-ekspert Natiq Cəfərliyə müraciət etdik. N.Cəfərli bildirdi ki, iqtisadi sahədə həyata keçirilən tədbirlərlə yanaşı, kiçik və orta biznesin (KOB)-ların inkişafı üçün idarəetmədə addımlar atılmalıdır: "İdarəetmədə bir dəyişiklik olmadığına görə iqtisadiyyatda verilən qərarların effektivliyi aşağı olur. Bu gün kiçik və orta sahibkarlığa ən böyük maneələrdən biri yerli icra strukturlarının müdaxiləsidir. Bu, kiçik və orta sahibkarlığın inkişafında əsas institusional əngəllərdən biridir. Bu vəziyyətin aradan qaldırılması üçün əməli tədbirlər görülməli, ciddi cəzalandırma mexanizmləri tətbiq olunmalıdır".

*"...kiçik və orta biznesin inkişafı üçün idarəetmədə addımlar atılmalıdır"*

Ekspert dedi ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı qarşısında duran əsas maneələrdən biri də inhisarçılıqdır: "İnhisarçılıq bu gün, bütövlükdə, ölkə iqtisadiyyatının inkişafı qarşısında ən böyük maneələrdən biridir. Məmurlarla biznesin çulğalaşması Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına mane olur. Müxtəlif sahələri nəzarətdə saxlayan oliqarxiya bazarlara kiçik və orta oyunçuların daxil olmasına imkan vermir. Azərbaycanda bununla bağlı nümunələr yüzlərlədir. Buna görə də məmurların biznesdən uzaqlaşdırılması lazımdır. Neçə ildir biz bunu səsləndiririk. Məmurlar biznesdən qopmasa, ayrılmasa, iqtisadiyyatın istənilən sahəsində inkişaf mümkün olmayacaq".

*Günel CƏLİLOVA*

# Çində yayılan ölümcül virus Azərbaycanla iqtisadi əlaqələrə necə təsir edə bilər...

**Çində yayılan koronavirus bütün dünyanı narahat edir. Çünki bu virusdan ölən və xəstələnənlərin sayı anbaan artır. Açıqlanan son məlumatlara görə, virusdan ölənlərin sayı 80 nəfərə çatıb, yoluxanların sayı isə 2,4 min nəfəri ötüb.**



Qeyd edək ki, Çinin hakimiyyət orqanları koronavirusun yayılmasının qarşısını almaq üzrə tədbirlər çərçivəsində xarici qrup turist səfərlərinin yanvarın 27-dən dayandırılmasına qərar veriblər.

Məlumdur ki, Çinlə Azərbaycan arasında iqtisadi-ticarət münasibətləri var. Yayılan ölümcül virus Azərbaycan-Çin münasibətlərinə necə təsir edəcək?

## *Qubad İbadoğlu: "Çində yayılan koronavirus Azərbaycan-Çin ticarət münasibətlərinə təsir edəcək"*

İqtisadçı-ekspert Qubad İbadoğlu bildirdi ki, Çində enerji daşıyıcılarına tələb və dünya bazarında neft-qazın qiymətləri aşağı düşəcək. Azərbaycan iqtisadiyyatı da bundan mənfi yöndə təsirlənəcək: "Çünki 2019-cu ildə Çin Azərbaycanın idxalda 3-cü böyük ticarət tərəfdaşı olub. Ötən il Azərbaycandan Çinə 752,2 milyon dollarlıq mal göndərilib, 1,432 milyard dollarlıq mal gətirilib. Çinin payı idxalda 10,5 faizə çatıb. Əgər epidemiyanın yaxın zamanlarda qarşısı alınmazsa, onda Azərbaycanda Çin mənşəli malların qıtlığı yarana və bu da heç şübhəsiz ki, istehlak bazarında qiymətlərin bahalaşmasına gətirib çıxara bilər. Həmçinin, Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında 2016-2019-cu illər üçün təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"ə uyğun olaraq, hazırda 100-dən çox Azərbaycan vətəndaşı Çinin ali məktəblərində təhsil alır. Hesab edirəm ki, onların təhlükəsizliyi ilə əlaqədar olaraq təcili və təxirəsalınmaz işlər görülməlidir. Onlar müvəqqəti olaraq ölkəyə qaytarılmalıdırlar. Onu da vurğulayım ki, bu proseslər son illər Çində yavaşıyan iqtisadi artımı daha da aşağı salacaq, məcmu tələbi və təklifi azaldacaq. Təbii ki, bu da Çində alıcılıq qabiliyyətinin azalmasına gətirib çıxaracaq. Bu səbəbdən də Çində enerji daşıyıcılarına tələb və dünya bazarında neftqazın qiymətləri aşağı düşəcək. Təbii ki, bu amillər Azərbaycan iqtisadiyyatına da təsir edəcək".

*"...istehlak bazarında qiymətlərin bahalaşmasına gətirib çıxara bilər"*

*Günel CƏLİLOVA*

# İmişli Şəkər Zavodu çökür, istehsalat uğursuzluğunu Rusiyadan idxalın artım amili ilə bağlayır...

***Pərviz Heydərov:** "İmişli Şəkər Zavodu bağlanacağı təqdirdə xeyli insan işsiz qalacaq"*

**Son illər ərzində respublikamızda həyata keçirilən iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi amilin ön plana çəkilməsidir. Bu dövrdə dövlət proqramlarının, fərman və sərəncamların yüksək səviyyədə icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edib, tərəqqi prosesində qeyri-neft sektorunun payı və rolunu davamlı şəkildə artırıb.**

Danılmaz faktdır ki, bir ölkənin əsas gəlir mənbələrindən biri də qeyri-neft sektorudur. Buna görə də bu sahənin inkişafına və genişlənməsinə xüsusi diqqət və qayğı ayrılır. Ancaq qeyri-neft sektoruna aid olan elə sahələr var ki, hazırda onun vəziyyəti ürəkaçan durumda deyil. Belə ki, Şəkər Emalı Zavodunun ciddi böhran vəziyyəti ilə qarşılaşması haqqında məlumat yayılıb.

"Azərsun Holdinq"in yaydığı məlumatda qeyd olunur ki, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC-nin İmişli rayonunda yerləşən Şəkər Emalı Zavodu ciddi böhran vəziyyəti ilə qarşılaşıb. Müəssisənin yaydığı açıqlamada qeyd olunur: "2016-cı ildən etibarən Rusiya Federasiyasından ölkəmizə şəkər tozu idxalının miqyası durmadan artmaqdadır. Üstəlik, idxal olunan şəkər tozunun qiyməti dempinq siyasəti ilə formalaşır. İmişli Şəkər Zavodunda maya dəyərinin aşağı salınması, qiymətdə rəqabət qabiliyyətinin artırılması yönündə milyonlarla ABŞ dolları ilə ölçülən investisiya qoyuluşları, həmçinin, digər səmərəliləşdirici səylərin həyata keçirilməsinə baxmayaraq, dempinqli idxal olunan məhsul ilə rəqabət aparılması obyektiv olaraq mümkün deyil. Məhz buna görə də müəssisəmiz son illər külli miqdarda zərərlə fəaliyyət göstərir.

Lakin "Azərsun Holdinq" rəhbərliyinin ölkəmizin sosial-iqtisadi inkişafı və regionda məşğulluğun təmin olunmasına verdiyi yüksək əhəmiyyətin nəticəsi olaraq, müəssisəmizin fəaliyyəti dayandırılmayıb. Hər kəsə məlumdur ki, İmişli rayonu başda olmaqla, Mərkəzi Aran bölgəsinin sosial-iqtisadi həyatında və işsizliyin aradan qaldırılmasında müəssisəmizin rolu həlledici dərəcədə mühümdür. Yaranmış bu böhran vəziyyətində, holdinqimizin bütün xoş niyyətli səylərinə rəğmən, müəssisəmizin tam gücü ilə ilboyu fəaliyyət göstərməsi çətinləşəcək.

Hazırda İmişli Şəkər Zavodunda ixtisar baş vermir. Sadəcə, istehsal müəssisəsinin fəaliyyətini dayandırması ilə bağlı ölkə qanunvericiliyinin tələbinə uyğun olaraq işçilərə ödənişlər edilir. Durum belə davam edərsə, istehsal müəssisəmiz 2020-ci ildən etibarən, sadəcə, payız mövsümündə məhdud miqdarda şəkər çuğundurу emalını həyata keçirməklə fəaliyyətini xeyli kiçiltməyə məcbur qalacaq ki, çox təəssüf, işçi heyətimizin sayına yenidən baxmalı olacağıq. Qeyd edək ki, artıq 3 ildir İmişli Şəkər Zavodu zərərlə işləyirdi".

Maraqlıdır, zavodun fəaliyyəti necə olacaq?

Məsələ ilə bağlı suallarımızı cavablandıran iqtisadçı-ekspert Pərviz Heydərov bildirdi ki, ölkədə qeyri-neft sektorunu inkişaf etdirmək və bu sahədən gəlirləri artırmaq, ümumiyyətlə, onun neft-qaz sektorundan irəli çıxmasına nail olmaq üçün hökumətin gördüyü işlər, həyata keçirdiyi tədbirlər, atdığı addımlar məlumdur. Nəticələr göz qabağındadır: "Belə ki, təkcə 2019-cu ilin yekunlarına görə, ölkədə ÜDM 2,2 faiz, o cümlədən, qeyri-neft sektoru 3,5 faiz artıb. Qeyri-neft sənayesi isə 14,3 faiz".

İqtisadçının sözlərinə görə, son illər qeyri-neft sektorunun inkişafına xüsusi diqqət və qayğı göstərilir. İmişli Şəkər Zavodunda baş verən hadisələr qeyri-neft sektorunun inkişafına və genişlənməsinə istiqamətlənən, həyata keçirilən addımlara ziddir: "Bunun səbəbi isə odur ki, qeyri-neft məhsullarla dünya bazarına çıxmaq, ümumiyyətlə, bu sahədə istənilən nəticəyə nail olmaq çox çətindir. Çünki bu məhsulların istehsalında ən mühüm cəhət keyfiyyət və rəqabətqabiliyyətlilik və qiymət məsələsidir. Məsələyə məntiqlə yanaşdıqda, bu və ya digər malın keyfiyyəti yüksək olarsa, onun maya dəyəri də artıq olmalıdır. Amma müasir dünyada rəqabət çərçivəsində vəziyyət o qədər ciddi və kəskin xarakter alıb ki, bütün istehsalçılar məhsulun keyfiyyətini artırmaqla bərabər, onun maya dəyərinin də qalxmasına yox, əksinə, azalmasına çalışırlar. Beləliklə də malın rəqabətqabiliyyətliliyi təmin edilir".

Həmsöhbətimiz hesab edir ki, İmişli zavodunda istehsal edilən məhsul maya dəyərindən baha başa gəlir və bunu müəssisənin məxsus olduğu holdinq də açıq şəkildə etiraf edir: "Yəni İmişli zavodunun məhsulları qiymət baxımından bahadır, çünki maya dəyəri yüksəkdir. Bu da ona dəlalət edir ki, həmin zavodda istifadə edilən texnologiya müasir deyil. Düzdür, holdinqin açıqlamasında qeyd edilir ki, xeyli vəsait sərf olunub, texnologiyanın yenilənməsi istiqamətində müvafiq addımlar atılıb və s. Amma o addımlar həqiqətən həyata keçirilsəydi, o zaman zavodun məhsullarının qiymət baxımından rəqabətqabiliyyətliliyi aşağı səviyyədə olmazdı və həmin məhsullar daxili bazarda Rusiyadan idxal edilən analoji məhsullar tərəfindən sıxışdırılıb çıxarılmazdı. Bu məsələ təkcə dempinq siyasətinin üzərinə atıla bilməz. Hər bir ölkə başqa ölkəyə ixrac etdiyi məhsulun qiymətini bazarda aşağı səviyyədə təmin etməyə çalışır ki, yerli məhsulu sıxışdırıb çıxarsın. Bu, təbii bir haldır. Bunu hansısa ölkəyə irad tutmaq məntiqsizlikdir. Azərbaycan da öz məhsulunu başqa ölkəyə ixrac edəndə həmin bazarda aşağı qiymətə qoyur ki, yerli məhsullarla rəqabət apara bilsin".




*"...istehsal edilən məhsul maya dəyərindən baha başa gəlir"*

Ekspert onu da vurğuladı ki, adıçəkilən zavod bağlanacağı təqdirdə xeyli insan işsiz qalacaq: "Sadəcə olaraq, zavod bazarın tələblərinə əsasən lazımi səviyyədə yenilənməyib, yeni texnologiyalar və əlavə investisiya vasitələri vaxtında tətbiq edilməyib. Ona görə də belə vəziyyət yaranıb. Bu da gətirib ona çıxarıb ki, zavodun məhsulları nəinki xaricdə, hətta yerli bazarda belə analoji məhsullarla rəqabət qabiliyyətinə malik deyil. Əlbəttə, qeyri-neft sektorunda belə bir halın müşahidə edilməsi çox acınacaqlı vəziyyətdir. Çünki həmin zavodun bağlanacağı təqdirdə xeyli insan işsiz qalacaq. Üstəlik, söhbət region əhəmiyyətli böyük bir müəssisədən gedir. Zənnimcə, aidiyyəti qurumlar belə bir iqtisadi əhəmiyyətli müəssisənin fəaliyyətinin dayanmasına icazə verməməlidirlər. Hesab edirəm ki, holdinq hökumətə müraciət edərək müvafiq kredit və ya maliyyə resursları cəlb etməklə, yenilənmədən sonra işini davam etdirə bilər. Bütün işlər hökumətlə birgə həyata keçirilməlidir".

***Günel CƏLİLOVA***

№ 14 (4145) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

28 YANVAR 2020-ci il

www.baki-xeber.com

# Arxeoloqlar 17 min yaşı olan daş tapdılar



**Malayziyanın Şimalında yerləşən Kedah əyalətində 17 min yaşı olan daş əşyalar tapılıb.**

"Milli.Az" xəbər verir ki, Malayziyanın Balinq bölgəsində Kelambu, Tembus, Akar mağaralarında keçən ildən bəri aparılan arxeoloji qazıntılar nəticəsində qədim əşyalar tapılıb. Daşdan düzəldilən əşyalara ilk dəfə nəzər salan arxeoloqlar təxmin edirlər ki, tapdıqları daşların 17 min yaşı var. Üstəlik, qazıntı aparan arxeoloqlar bildiriblər ki, fevral ayında yeni qədim əşyaların tapılacağı ehtimal edilib. Tapılan əşyalar daha dəqiq tədqiq edilmək üçün Malayziya Universitetinin geologiya fakültəsinə göndərilib.

## Vaxtından əvvəl yaşlanmağa səbəb olan 7 amil

**İnsanların vaxtından əvvəl yaşlanması genetik xüsusiyyətlərlə yanaşı ətraf mühit təsirlərindən və müxtəlif vərdişlərdən asılıdır.**



"Yenicag.az" yaşlanmaya təsir edən amilləri təqdim edir: 1. Həddindən artıq arıq olmaq - Arıq insanlarda dəridə vaxtından tez qırışlar yaranır. 2. Gözləri ovuşdurmaq - Göz çevrəsində olan həssas dərinin qaralmasına və qırışmasına səbəb olur. 3. Yuxusuzluq - Yuxu zamanı heceyrələrin yenilənməsi üçün vacib olan hormonlar ifraz edilir. 4. Üzüstü və ya yan yatmaq - Həmçinin bu formada yatmaq sağlamlıq üçün də zərərlidir. 5. Stress - Artıq hamıya məlumdur ki, stress sadəcə erkən yaşlanmaya yox, həm də vaxtsız ölümlərə səbəb olur. 6. Günəş eynəyindən istifadə etməmək - Günəşə baxarkən gözləri qısmaq qırışıqlıq yaradır. 7. Sabundan istifadə etmək - Sabun dərini qurudur və təbii yağların ifrazını zəiflədir.

## Elan

Əliyeva Nəzakət Rüstəm qızının adına olan JN 23391 nömrəli torpağın sənədi itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Qəhrəmanov Rüfət Fuad oğlunun adına verilmiş ev qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Mahmudov Akif Ənvər oğlunun adına verilmiş 5885/1897 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyev Məhiyəddin Möhübbət oğluna "Azərsu" ASC tərəfindən verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Şir-zadə Eltun Vahid oğluna Qafqaz Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Bakcell" növbəti dəfə Milli KSM Mükafatının qalibidir

**"Bakcell" şirkəti 2019-cu il ərzində həyata keçirdiyi korporativ sosial məsuliyyət fəaliyyətinə görə "Milli KSM Mükafatı 2019? mükafatına layiq görülüb.**

"Bakcell"in 2010-cu ildən başlayaraq "Azərbaycana Birgə Yardım" (UAFA) təşkilatı ilə birgə həyata keçirdiyi "İncəsənət vasitəsilə ünsiyyət" layihəsi "Milli KSM Mükafatı 2019? ilə təltif olunub.

Korporativ sosial məsuliyyət (KSM) layihələrinin təşviqi üzrə dövlət siyasətinin və Heydər Əliyev Fondunun həyata keçirdiyi sosial layihələrin davamı olaraq Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və PROAKTİV PR Agentliyi tərəfindən təşkil olunan "Milli KSM Mükafatı 2019" müsabiqəsinə Azərbaycanda fəaliyyət göstərən beynəlxalq və milli şirkətlər son bir il ərzində həyata keçirdiyi KSM layihələrini təqdim edib. Müsabiqəyə təqdim olunan layihələr BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilən Davamlı İnkişaf Məqsədləri əsasında müvafiq komissiya tərəfindən qiymətləndirilib.

Qeyd edək ki, Münsiflər Heyətində İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, "ASAN xidmət", "ABAD", Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Gənclər Təşkilatları Milli Şurası, KSM Türkiyə və "CSR Azerbaijan" təşkilatları təmsil olunub. Nəticədə müsabiqədə iştirak edən 34 layihədən 7 layihə qalib elan edilib.

"Qürurla demək istərdim ki, "Bakcell" şirkətinin həyata keçirdiyi korporativ sosial məsuliyyət proqramı ölkəmizdə ilk və ən uzunömürlü KSM layihələrindən biridir. Təməli 2009-cu ildə qoyulmuş "Bakcell Stars" KSM proqramı çərçivəsində həyata keçirilən layihələr bu günə qədər minlərlə insanı əhatə edib. "Milli KSM mükafatı 2019" mükafatına layiq görülən "İncəsənət vasitəsilə ünsiyyət" layihəsinin artıq 10 yaşı var. Bu layihənin xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiya olunmasında böyük rolu var", - deyə "Bakcell" şirkətinin PR və Korporativ Kommunikasiyalar üzrə direktoru Süheylə Cəfərova bildirib.

"Bakcell" şirkətinin dəstəyilə davamlı şəkildə həyata keçirilən bu layihə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquq və imkanların təmin edilməsi, asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə yönəlib. Bu müddət ərzində "UAFA"nın Gəncə, Xaçmaz və Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) mərkəzlərində təşkil edilmiş dram, rəqs, rəsm və yaradıcılıq dərnəklərindən 1000 nəfərdən artıq uşaq bəhrələnib. Layihə çərçivəsində təşkil olunan dərnəklər cəmiyyətdə sağlamlıq imkanları məhdud uşaqlara və əlilliyə qarşı münasibəti dəyişir və bu uşaqların cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə kömək edir.

Onu da qeyd edək ki, "Bakcell" ardıcıl olaraq iki ildir Milli KSM Mükafatının qalibi olur. Ötən il "Bakcell"in SOS Uşaq Kəndləri - Azərbaycan Assosiasiyası ilə birlikdə həyata keçirdiyi "Öz biznesinə başla və təkmilləşdir" layihəsi "Milli KSM Mükafatı 2018? ilə təltif olunub.





**Qoç** - Dost və uzaq qohumlarla ünsiyyəti günün ikinci yarısına planlaşdırın. Çünki, bu zaman ətrafdakılarla daha yaxşı dil tapmaq iqtidarında olacaqsınız. Gün ərzində gələcəkdə öz xeyrinizə istifadə edə biləcəyiniz xeyli faydalı məlumat ala bilərsiniz.



**Buğa** - Sizi bu gün flirt gözləyir - asanlıqla vurulur və eyni müvəffəqiyyətlə də insanları özünüzə aşiq edirsiniz. Ancaq hisslərinizi hədər sərf etməyin: bu, sizin özünüzə inamınızı bir qədər laxlada bilər.



**Əkizlər** - Gün təzadlıdır: daxili rahatlığınız sabit olmayacaq, yaxınlarınızla mübahisədə öz nöqteyi-nəzərinizi dəfələrlə müdafiə etməli olacaqsınız. Yaxşı olar ki, dükan-bazar gəzib alver etməyəsiniz, bədxərcliyinizin nəticəsi pis ola bilər.



**Xərçəng** - Fantaziyanızı məhdudlaşdırmayın. Orijinal ideyalar yaradıcılıqda xeyli irəliləməyinizə kömək edəcək. Tələbə və müəllimlər üçün uğurlu gündür. Həmçinin biznesmenlər də bu gün şikayət etməyəcəklər.



**Şir** - Maliyyə vəziyyətinizi yaxşılaşdırmaq və müxtəlif fəaliyyət sahələrində özünüzü ən yaxşı tərəfdən göstərmək şansınız yaranır. Potensialınız və yaradıcı qabiliyyətiniz çox yüksəkdir. Şirlər bu gün seksual bacarıqları ilə də heyrətləndirəcəklər.



**Qız** - Bu gün mənfi yüklü hadisələrə reaksiyanız daha güclüdür. Pis fikirləri başınızdan qovun. Nikbin olanlar böyük uğur qazanacaqlarına ümid edə bilərlər. Bunun üçün bir az da əmək sərf etmək və tərəfdaş tapmaq lazımdır.



**Tərəzi** - Ətrafınızda baş verənləri diqqətlə izləyin, ilk baxışdan əhəmiyyətsiz görünən xırda məsələlər sizə yeni və maraqlı ideyalar verə, gələcək üçün planlar qurmağınıza yardımçı ola bilərlər.



**Əqrəb** - İnsanların birliyə can atmaları, güclərini birləşdirmək cəhdləri isə həqiqətən, sevindirəcək. Hətta, bir vaxtlar düşmən mövqeyində duran insanlar da müttəfiqliyə razı olacaqlar.



**Oxatan** - Bu gün çoxlarının başı yığılıb qalmış problemlərin həllinə qarışacaq. Əlbəttə, bu perspektiv sevindirmir, üstəlik, insanlar əmindirlər ki, uğurlu nəticə əldə etmək mümkün olmayacaq.



**Oğlaq** - Bu gün bol təəssürat yaşayacağınız bir gündür. Bunların bəziləri görüşlər və maraqlı tanışlıqlarla əlaqəlidir. Bu gün istəklərinizlə reallıq arasındakı sərhədi gözünüz görmür və bu səbəbdən yanılmaq ehtimalınız böyükdür.



**Dolça** - Faydalı əlaqələr qura biləcəksiniz. Yaradıcı və intellektual fəaliyyət üçün əla vaxtdır. Sadəcə, xırdalıqlara diqqət yetirməyiniz kifayət edər. İstənilən yenilik, o cümlədən şəxsi həyatınızda da xoş nəticələr verəcək.



**Balıqlar** - Bütün ciddiyyətinizlə işə girişsəniz, böyük uğurlar qazana bilərsiniz. Həyat eşginiz və nikbinliyiniz sizi istənilən məclisin ulduzuna çevirəcək, odur ki, yeni tanışlıqlardan imtina etməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Öldürücü vərdişlər hansılardır?

**Sağlamlığı qorumaq üçün immun sisteminin vəziyyəti önəmlidir və immunitetin durumu daimi olaraq izlənməlidir.**

"Yenicag.az" bildirir ki, mütəxəssislər bunun üçün çox ziyanlı bir vərdişlərdən uzaq olmağı tövsiyə edirlər. Öldürücü hesab olunan vərdişlər hansılardır? 1. Alkoqol istifadəsi. Alkoqol bütün orqanizmin sağlamlığına mənfi təsir göstərir. 2. Nikotin asılılığı. Siqaretdə ciddi xəstəliklərin inkişafına kömək edən çoxlu sayda maddə var. Onlar immuniteti zəiflədərək xəstəliklərə tutulma riskini artırır. 3. 7-8 saatdan az yuxu. Yuxu orqanizmin düzgün çalışması üçün bərpa rolunu oynayır. Az, nizamsız yatmaq immun sisteminə mənfi təsir edən əsas amillərdən biridir. 4. Ayaqların soyuq olması. Tövsiyə olunur ki, ayaqlar isti saxlanmalıdır. Əks təqdirdə, viruslu və digər yoluxucu xəstəliklər üçün asan bir hədəf olacaqsınız. 5. Düzgün qidalanma prinsiplərinə məhəl qoymamaq. "Fast food" qidalar və qızardılmış yeməklərin istifadəsi sağlamlığa ciddi ziyan vurur. Alimlərin fikrincə, xərçəngin inkişafına səbəb olan qızardılmış yeməklər, əsasən də qızartma ətdən uzaq olmaq lazımdır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.